RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 236 (8829) BAZAR 31 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan-Türkiyə qardaşlığının növbəti təntənəsi

## Bu qardaşlıq dövlət başçıları səviyyəsində daha yüksək zirvələrə ucalır

Beynəlxalq münasibətlərə nəzər salanda dövlətlərarası münasibətlərin bir qayda olaraq iki dövlət başçısı arasındakı əlaqələrə söykəndiyini görürük. Azərbaycan-Türkiyə münasibətlərinə gəldikdə isə bu yaxınlıq eyni zamanda iki xalqın əsrlərin dərinliyindən gələn qan qohumluğu ilə bağlıdır. Türkiyə ilə Azərbaycanın möhkəm qardaşlıq və dostluq tellərini təsdiq edən yüzlərlə faktı sadalamaq mümkündür, yəni onları axtarmağa belə ehtiyac yoxdur. Bu misilsiz qardaşlığı təsdiqləyən həmin faktlar bəlkə də hər birimizin həyatından, tərcümeyi-halından keçir.

Ötən əsrin 80-ci illərində Naxçıvanda Türkiyə ilə sərhəd boyu yaşayış məntəqələrində bəziləri Türkiyənin televiziya kanallarına baxmaq, türk musiqisini dinləmək üçün özləri xüsusi antenalar quraşdırardılar. Bu, qanunla qadağan olunmuş təhlükəli bir addım olsa da, ondan vaz keçmək mümkün deyildi. İnsanların qəlbində o taya elə böyük, güclü sevgi var idi ki, onları bu gizli addımı atmağa sövq edirdi.

O illərdə Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsində milli kadrlar kimi təhsil alan tələbələrin "himni" də Zeynəb Xanlarovanın ifa etdiyi "Sev, kardeşim" adlı türk mahnısı idi. Bu mahnını türkdilli respublikalardan olan gənclərlə birlikdə latışlar, ukraynalılar da sevə-sevə oxuyardılar.

1990-cı ilin qanlı Yanvar hadisələri zamanı Türkiyə-Azərbaycan sərhədləri boyu hər iki tərəfdə yanan tonqalların alovu iki xalqın bir faciəni eyni ağrı, eyni qəzəblə yaşamasının təsdiqi kimi göylərə millənmişdi. O tərəfdən türk qardaşlarımız min il əvvəl olduğu kimi, bizim faciəmizə şərik olduqlarını alovların dili ilə ifadə edirdilər. Çünki sərhədlər bağlı idi, onları aşıb keçmək mümkün deyildi.

Bu faktlara indi bəlkə də az adam önəm verər, bəlkə də Türkiyədə, elə bizdə də bunları bilən az adam tapılar. Lakin reallıq odur ki, bu tarixi və genetik bağlılıqlar, iki xalqın qan qohumluğu tarix boyu mövcud olub və heç bir qadağa və məhrumiyyətlər, aramızda divar kimi çəkilən tikanlı sərhədlər bu qardaşlığın gücünü sarsıda, onu zəiflədə bilməyib.

Bu il oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın birlikdə iştirak etməsi də əsrlərin dərinliyindən gələn bu qardaşlığın dövlət başçıları səviyyəsində yüksəklərə qaldırılmasının təzahürlərindən biridir.

Xatırladaq ki, bu, Türkiyə Prezidentinin Azərbaycanın işğaldan azad edilmiş torpaqlarına ikinci səfəridir. Dörd ay bundan əvvəl o, Şuşa şəhərində olmuşdu. Birinci görüşdə imzalanan Şuşa Bəyannaməsi tarixi bir sənəd kimi iki dövlətin əlaqələrini beynəlxalq müttəfiqlik səviyyəsinə qaldırmışdır.

Sonuncu görüşdə Zəngilan rayonunun Ağalı kəndində hər iki Prezident mətbuata birgə bəyanatla çıxış etmişlər. Azərbaycan Prezidenti Füzuli Beynəlxalq Hava Limanının açılışında iki dövlət başçısının birgə iştirakını birliyimizin və gücümüzün göstəricisi kimi belə qiymətləndirmişdir: "Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır".

Türkiyə Prezidenti bununla bağlı mövqeyini bəyanatında belə təsdiqləmişdir: "Ən önəmlisi, Şuşa Bəyannaməsi ilə strateji müttəfiqlik səviyyəsinə çatdırdığımız əlaqələrimizi daha necə inkişaf etdirə biləcəyimizi müzakirə etdik. Bir millət, iki dövlət olmağın verdiyi ortaq şüur və ruhla hərəkət edirik".

Maraqlısı odur ki, müəyyən qüvvələr iki dövlətin əsrlərin dərinliyindən gələn qardaşlığını regional təhlükə kimi qiymətləndirməyə cəhdlər edir, bunun qarşısını almaq üçün davamlı surətdə müəyyən addımlar atır. Ən çox bu birlikdən narahat olan işğalçı Ermənistan və onu oyuncaq kimi ambisiyalarının quluna çevirən çoxmilyonlu erməni diasporudur.

Türkiyə-Azərbaycan münasibətlərinə gəldikdə isə bu əlaqələr bir qayda olaraq iqtisadi müstəvidə inkişaf edir. Azərbaycan Prezidenti mətbuata bəyanatında bu iqtisadi əlaqələrə toxunmuş, Zəngəzur dəhlizinin bütün Türk dünyasını birləşdirəcəyini qeyd etmiş, böyük avtomobil yolunun təməlinin birlikdə qoyulduğunu diqqətə çatdırmışdır.

*Ardı 4-cü səh.*

## "Taxıl haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Taxıl haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 491; 2004, № 2, maddə 57; 2007, № 5, maddə 397; 2011, № 2, maddə 71; 2014, № 11, maddə 1373; 2016, № 7, maddə 1241; 2017, № 5, maddə 717; 2018, № 1, maddə 17; 2019, № 8, maddə 1383) 8.2-ci maddəsində "orqanlarının" sözü "orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2021-ci il*

## İqtisadi inkişaf sürət götürür

**Dövlət Statistika Komitəsi (DSK) cari ilin 9 ayı üzrə ölkənin ayrı-ayrı sahələrini əhatə edən sosial-iqtisadi göstəriciləri açıqlayıb. Hesabatda bildirilir ki, yanvar-sentyabr aylarında Azərbaycanda 62,9 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 4,8 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri neft-qaz sektorunda 6,2 faiz artmış, neft-qaz sektorunda 1,4 faiz azalmışdır.**

*Bax: səh. 6*

## Məhsulların sertifikatlaşdırılması ixrac imkanlarını genişləndirir

Dünyada ölkələrin iqtisadi inkişaf indeksini müəyyən edən parametrlərdən biri də idxal-ixrac əməliyyatlarında müsbət saldonun olmasıdır.

Son bir neçə ildə aparılan idxal-ixrac əməliyyatlarının statistikasına diqqət yetirdikdə görürük ki, Azərbaycanın müsbət saldosu dəyişməyib. Bu fakt onu göstərir ki, ölkə daha çox məhsul və xidmət ixrac etmək imkanındadır. Müsbət saldo ölkənin valyuta qazanmaq imkanlarını artırmaqla yanaşı, həmçinin onun maliyyə sabitliyinin qorunmasında da əhəmiyyətli rol oynayır.

Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, cari ilin yanvar-avqust aylarında Azərbaycanda fəaliyyət göstərən hüquqi və fiziki şəxslər dünyanın 180 ölkəsi ilə ticarət əməliyyatları aparmışdır. Hesabat dövründə xarici ticarət dövriyyəsi 20100,1 milyon dollar, o cümlədən ixracın dəyəri 12750,6, idxalın dəyəri 7349,5 milyon dollar təşkil etmiş, nəticədə ölkəmizin xeyrinə 5401,1 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. Eyni zamanda həmin dövrdə idxal azalmış, ixrac isə artmışdır.

*Ardı 3-cü səh.*



## Göygöllü fermerlər ili uğurla başa vuracaqlarına əmindirlər

Göygöl rayonu heyvandarlıq məhsulları istehsalında da uğurlu göstəricilərə nail olmuşdur. Hazırda rayonda 20,5 min başdan çox qaramal, 125 min başa yaxın davar var ki, bu da əvvəlki ildəkindən çoxdur. Ət və süd istehsalında da irəliləyiş nəzərə çarpır. Təkcə süd istehsalı 9 ayda 17,8 ton artmışdır.

*Bax: səh. 6*



## Rəsmi İrəvan Zəngəzur dəhlizini özünə xilas yolu görür

### Ermənistanda parlament debatları sərhədlə bağlı maraqlı məqamları üzə çıxarır

Ermənistanda ictimai-siyasi müstəvidə baş verən son proseslər getdikcə daha çox diqqət cəlb etməkdədir. Xüsusən də bu ölkənin parlamentində keçirilən "hökumət saatı"nda baş nazir Nikol Paşinyanın dedikləri ətrafında maraqlı diskussiyalar gedir.

Zəngəzur dəhlizinin açılması istiqamətində davam edən müzakirələr zamanı Paşinyan qeyd edib ki, 2020-ci ilin dekabrından Ermənistanın sərhəd xidməti əvvəlki mövqelərdə keşik çəkir. Halbuki Ermənistan parlamentinin oktyabrın 26-da keçirilmiş qapalı iclasında 10 noyabr bəyanatından sonra Ermənistan qoşunlarının geri çəkilməsi barədə əmrin kim tərəfindən verildiyi məsələsi qaldırılmışdı.

*Ardı 8-ci səh.*

## Koronavirusa yoluxma halları artır

### Bu infeksiyaya qarşı müqaviməti gücləndirmək üçün buster doza vurdurmaq lazımdır

Dünyada COVID-19 infeksiyasından həyatını itirənlərin sayı 5 milyonu, bu təhlükəli virusa yoluxanların sayı isə 246 milyonu ötüb.




Belə bir vaxtda Cenevrədə keçirilən brifinqdə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus son iki ayda ilk dəfədir ki, COVID-19-a yoluxma və bu səbəbdən ölüm hallarının sayının artdığını bəyan edib. O, pandemiyanın "inadkarlığı"nı ona qarşı mübarizə vasitələrinin qeyri-bərabər dərəcədə əlçatan olması ilə əlaqələndirib.

*Ardı 8-ci səh.*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555; Azərbaycan Respublikasının 2021-ci il 27 may tarixli 334-VIQD nömrəli, 22 iyun tarixli 348-VIQD nömrəli və 9 iyul tarixli 360-VIQD nömrəli qanunları) 22-1.1-ci maddəsinə “vergi orqanları” sözlərindən əvvəl “, habelə dövlət və ictimai əhəmiyyətli məqsədlərlə əlaqədar” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2021-ci il*

## “Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə”nin və “Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə”nin və “Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 415; 2020, № 12 (I kitab), maddə 1473) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə” üzrə:

1.1. 1.2.1-ci yarımbəndə “demisezon gödəkcə” sözlərindən sonra “, yay gödəkcəsi, qış gödəkcəsi” sözləri əlavə edilsin;

1.2. 1.2.2-ci yarımbənddən “, kepi” sözü çıxarılsın;

1.3. 2.2.1-ci yarımbəndə “şlyapa” sözündən əvvəl “qalın parçadan” sözləri əlavə edilsin;

1.4. 2.3.1-ci yarımbəndə “şlyapa” sözündən əvvəl “nazik parçadan” sözləri əlavə edilsin;

1.5. 3.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.1.1. ali rəis heyəti üçün boz qaragül xəzdən tikilir. Günlüyü və qulaqlıqları tünd mavi rəngdədir. Günlüyünün üzərinə ali rəis heyəti üçün müəyyən edilmiş qızılı rəngdə naxış tikilir. İki sarı metaldan hazırlanmış, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri olan düymə ilə bərkidilən qızılı rəngli toxunma qaytanı və Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri olan kokardası vardır (şəkil 39);”;

1.6. 5.1-ci bənddə “kepi” sözü “yay papağı” sözləri ilə və “gödəkcə, hərbi nümunəli köynək” sözləri “qış gödəkcəsi, yay gödəkcəsi, qısaqol yay köynəyi” sözləri ilə əvəz edilsin;

1.7. 5.2 - 5.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

“5.2. Yay papağı - açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş parçadan tikilir. Günlüyü (ali rəis heyəti üçün papaqda qızılı rəngdə naxış ilə) eyni parçadandır. Ön tərəfində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri olan kokardası vardır (şəkil 43-2, 48).

5.3. Qış papağı - açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş qalın parçadan tikilir. Günlüyü (ali rəis heyəti üçün papaqda qızılı rəngdə naxış ilə) və qatlanan yan tərəfləri açıq mavi rəngdədir. Ön tərəfində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri olan kokardası vardır (şəkil 43-1, 47).

5.4. Qış gödəkcəsi - açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş qalın parçadan tikilir. Qatlanan boyunluqludur (ali rəis heyəti üçün mavi rəngli), isti içliyi, iki düz yan, üstlüyü qatlanan və düymələnən iki döş cibləri, çiyinlərində poqonlar vardır. Sol qolunda (qadınlarda sağ qolunda) qol nişanının təsviri vardır (şəkil 9-1, 9-2, 36, 36-1).

5.5. Yay gödəkcəsi - açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş parçadan tikilir. Qatlanan boyunluqludur, iki düz yan, üstlüyü qatlanan və düymələnən iki döş cibləri, çiyinlərində poqonlar vardır. Sol qolunda (qadınlarda sağ qolunda) qol nişanının təsviri vardır (şəkil 9-3, 9-4, 37, 37-1).”;

1.8. aşağıdakı məzmunda 5.5-1-ci bənd əlavə edilsin:

“5.5-1. Qısaqol yay köynəyi - açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş parçadan tikilir. Qatlanan boyunluqludur, iki düz yan, üstlüyü qatlanan və düymələnən iki döş cibləri, çiyinlərində poqonlar vardır. Sol qolunda (qadınlarda sağ qolunda) qol nişanının təsviri vardır (şəkil 9-5, 9-6, 38, 38-1).”;

1.9. 5.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

“5.6. Mayka - qış üçün qalın, yay üçün nazik açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş parçadan tikilir.”;

1.10. 5.7-ci bənddə “tünd göy rəngli hərbi nümunəli” sözləri “açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş” sözləri ilə əvəz edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri”nin 36, 37, 38, 39, 47, 48 nömrəli şəkilləri yeni təsvirdə verilsin və həmin təsvirlərə 9-1, 9-2, 9-3, 9-4, 9-5, 9-6, 36-1, 37-1, 38-1, 43-1 və 43-2 nömrəli şəkillər əlavə edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2021-ci il*



Şəkil 39. Gömrük orqanlarının ali rəis heyəti üçün xəzli papağın təsviri

Şəkil 43-1. Gömrük orqanlarının ali rəis heyəti kişi və qadın əməkdaşları üçün səhra geyim formasının qış papağının təsviri

Şəkil 43-2. Gömrük orqanlarının ali rəis heyəti kişi və qadın əməkdaşları üçün səhra geyim formasının yay papağının təsviri

Şəkil 47. Gömrük orqanlarının baş və orta rəis heyəti və kiçik heyəti kişi və qadın əməkdaşları üçün səhra geyim formasının qış papağının təsviri

Şəkil 48. Gömrük orqanlarının baş və orta rəis heyəti və kiçik heyəti kişi və qadın əməkdaşları üçün səhra geyim formasının yay papağının təsviri

## Şəhid və şəhid ailəsi statusu almış şəxslərə, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə və müharibə veteranlarına dair məlumatların mübadiləsi mexanizminin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, şəhid və şəhid ailəsi statusu almış şəxslərə, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə və müharibə veteranlarına dair məlumatların mübadiləsi mexanizminin təkmilləşdirilməsi, o cümlədən həmin məlumatların sistemləşdirilməsi və axtarışının avtomatlaşdırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində “Zəfər” altsistemi (bundan sonra - altsistem) yaradılsın.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

2.1. altsistemin formalaşdırılmasını 1 (bir) ay müddətində təmin etsin;

2.2. bu Fərmanın 4-cü hissəsində nəzərdə tutulan dövlət orqanlarının altsistemə çıxışını təmin etsin;

2.3. altsistemə daxil ediləcək məlumatların, habelə qanunla qorunan digər məlumatların mühafizəsinin təmin olunması üçün Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə zəruri tədbirlər görsün;

2.4. “Əlillik” (TSERAS) altsistemindən müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər barədə məlumatların altsistemə ötürülməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi altsistemin Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”na uyğun olaraq Elektron Hökumət İnformasiya Sisteminə ötürülməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və yerli icra hakimiyyəti orqanları:

4.1. altsistem formalaşdırıldıqdan sonra altı ay müddətində şəhid və şəhid ailəsi statusu, habelə müharibə veteranı statusu almış şəxslərə dair məlumatların altsistemə daxil edilməsini təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər;

4.2. şəhid və şəhid ailəsi statusunun, habelə müharibə veteranı statusunun verildiyi tarixdən 5 (beş) iş günü müddətində bu barədə məlumatın altsistemə daxil edilməsini təmin etsinlər.

5. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634; 2020, № 4, maddə 417; 2021, № 5, maddə 445, № 6 (I kitab), maddə 566) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

5.1. aşağıdakı məzmunda 2.1.15-1-ci, 2.3.15-1-ci yarımbəndlər və 2.8-ci bənd əlavə edilsin:

“2.1.15-1. “Zəfər” altsistemi;

“2.3.15-1. şəhid və şəhid ailəsi statusu almış şəxslər, müharibə veteranları və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər barədə məlumatların “Zəfər” altsistemi vasitəsilə toplanması və sistemləşdirilməsi, habelə şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin və müharibə veteranlarının reyestrinin aparılması;”;

“2.8. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və yerli icra hakimiyyəti orqanları şəhid və şəhid ailəsi statusu, habelə müharibə veteranı statusu verildiyi tarixdən 5 (beş) iş günü müddətində bu barədə məlumatı altsistemə daxil edirlər.”;

5.2. 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.2. MEİS-in strukturuna aşağıdakı reyestrlər daxildir:

2.2.1. “Məşğul şəxslərin” reyestri;

2.2.2. “Əlilliyi olan şəxslərin” reyestri;

2.2.3. “Şəhid və şəhid ailəsi statusu almış şəxslərin” reyestri;

2.2.4. “Müharibə veteranları” reyestri.”;

5.3. 2.7-ci bənddə “tabeliyində” sözü “Tabeliyində” sözü ilə əvəz edilsin;

5.4. 2.3.5-ci yarımbəndə “eləcə də” sözlərindən əvvəl “əlilliyi olan şəxslərin reyestrinin aparılması,” sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2021-ci il*

## “Taxıl haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 15 oktyabr tarixli 386-VIQD nömrəli Qanununun tətbiqi və “Taxıl haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 370 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Taxıl haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 15 oktyabr tarixli 386-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “Taxıl haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 8.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi nəzərdə tutulur.

2. “Taxıl haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 370 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 510; 2020, № 12 (I kitab), maddə 1460) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə “Qanununun” sözündən sonra “8.2-ci maddəsində və” sözləri əlavə edilsin;

2.2. 2.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

“2.4. həmin Qanunun 8.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi nəzərdə tutulur;”.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Taxıl haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 15 oktyabr tarixli 386-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2021-ci il*

## Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli “Əmək” ordeni ilə**

Abbasov Rafail Əli oğlu
Abbasov Rəhim Abbas oğlu
Ağayev Səmədağa Qasım oğlu
Ansuxskiy Abdulqədir Əli oğlu
Babayev Məhəmməd Həsənağa oğlu
Cürənli Elxan Firuddin oğlu
Dövlətov Dədəkişi Babakişi oğlu
Dursunova Mirvari Murad qızı
Ədilov Namiq Nazim oğlu
Əhmədov Sadiq Rəşid oğlu
Əhmədzadə Sahib Qürbət oğlu
Əliyev Xanlar Allahverdi oğlu
Əsgərov Etibar İsman oğlu
Əzimov Balağa Gülağa oğlu
Əzizov Rüstəm Hüseyn oğlu
Hacıyev Elşən Hacıbaba oğlu
Hümbətova Brilyant Ərəstun qızı
Hüseynov Ehtibar Allahverdi oğlu
Hüseynov İsmayıl Cilingir oğlu
İmanova Səhər İman qızı
İsrafilov Eldar Babasən oğlu
Qəfərov Mürsəl Səfər oğlu
Məmmədov Arzu Papır oğlu
Məmmədov Əhliman Şahabbas oğlu
Məmmədov Ərşad Xanqulu oğlu
Məmmədov Məmməd Vladimir oğlu
Məmmədov Rusif Məhəmmədəli oğlu
Nəcəfov Seyran Burhan oğlu
Nəsirov Zəfər Novruz oğlu
Novruzov İlqar Əsgər oğlu
Novruzov Qulu Novruzəli oğlu
Rəhimov Zülfüqar Ənvər oğlu
Salmanov Məzahir Xasay oğlu
Şirinov Ehtibar Bəhmən oğlu
Yəhyayev Cəfər Qəfər oğlu
Zayadov Ələddin Hüseynağa oğlu

**“Tərəqqi” medalı ilə**

Allahverdiyev Rafiq Bayram oğlu
Bəkirov Faiq Kamal oğlu
Əliyev Mütavil Sədrəddin oğlu
Əliyev Namiq İsrafil oğlu
Əsədov Ağa Ziyad oğlu
Fikrətzadə Firdovsi Fikrət oğlu
Həsənov Hətəm Həsən oğlu
Həsənov Rahil Qurban oğlu
Hüseynov Məhəmməd Səfiyar oğlu
Hüseynov Vüqar Məsim oğlu
Xatibi Məsud Mahmud oğlu
İsayev Niyamət İsa oğlu
Kərimov Hüseyn İbrahim oğlu
Quliyev Yaşar Hacı oğlu
Məmmədov Şahmar Məmməd oğlu
Rüstəmov Bəybala Nəriman oğlu
Süleymanov Abbas Qurban oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2021-ci il*

## Tank bölmələrində döyüş atışları icra olunub



Bu ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunun tank bölmələrində döyüş atışları icra olunub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, döyüş maşınlarının idarə olunması vərdişlərini təkmilləşdirən tank heyətləri təyin olunmuş hədəflərə praktiki atışlar icra edib.

# Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi Qrupun növbəti iclası olub



Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Minalardan və partlamamış hərbi sursatlardan (PHS) təmizləmə üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA), İqtisadiyyat Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və Dövlət Sərhəd Xidməti nümayəndələri iştirak ediblər.

Müvafiq qurumlar tərəfindən prioritetlərə, əsasən, qarşıya qoyulmuş plan üzrə ərazilərin mina və partlayıcı qurğulardan təmizlənməsi işləri, eləcə də əməliyyatlara cəlb olunmuş texnika və avadanlıqlar barədə məlumat verilib.

İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən icra olunan humanitar minatəmizləmə fəaliyyətinin gedişatı (2020-ci il noyabrın 10-dan 2021-ci il oktyabrın 28-dək 5917 hektar ərazi təmizlənmiş, 26 min 931 ədəd mina və PHS aşkar edilmiş, cari ilin oktyabr ayı ərzində isə 381 min 13 hektar ərazi təmizlənmiş, 1846 ədəd mina və PHS aşkar edilərək zərərsizləşdirilmişdir) barədə məlumat təqdim edilib. "Azərenerji" ASC-nin sifarişi əsasında Ağdam elektrik xətti və Qubadlı rayonu ərazisində əkin sahəsi tam təmizlənib, iki layihə üzrə ümumi sahəsi 1020 hektar təşkil edən ərazi aidiyyəti üzrə təhvil verilib. Həmçinin FHN-nin 5 baş minaaxtaran itləri ANAMA tərəfindən akkreditasiyadan keçirilərək təhvil verilib.

Fövqəladə Hallar Nazirliyi tərəfindən həyata keçirilən minatəmizləmə əməliyyatları barədə təqdim olunmuş məlumata əsasən, Ağdam və Füzuli rayonları istiqamətində cari il oktyabrın 28-dək ümumilikdə 1 milyon 161 min 632 kvadratmetr ərazi təmizlənmiş, 3490 ədəd mina və partlamamış hərbi sursat aşkar edilmişdir. Ərazilərin minalardan təmizlənməsi işinə FHN-in 33 minaaxtaranı cəlb edilib.

Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilən minatəmizləmə əməliyyatları barədə təqdim olunmuş məlumata əsasən, oktyabr ayı ərzində 25 hektar ərazi təmizlənmiş, 40 ədəd mina və partlamamış hərbi sursat (2020-ci ilin noyabrından bu il oktyabrın 28-dək 312 hektar ərazi təmizlənmiş, 3058 ədəd mina və PHS) aşkar edilərək zərərsizləşdirilib.

Təmizlənmiş ərazilərin məlumat və koordinatlarının müvafiq sənədlər üzərində qeyd olunması qaydalarına dair ANAMA tərəfindən Fövqəladə Hallar Nazirliyi aidiyyəti nümayəndələrinə humanitar minatəmizləmə fəaliyyətində məlumatların idarəolunması təlimlərinin keçirilməsi üzrə fikir mübadiləsi aparılıb.

Azərbaycanda icra edilən minatəmizləmə əməliyyatlarında istifadə üçün təqdim olunan mexaniki vasitələr və minatəmizləmə avadanlıqlarının işğaldan azad edilmiş ərazilərdə fərqli relyef şəraitində test edilməsi, eləcə də test nəticələrinə dair rəy və təkliflər əsasında hesabatlar hazırlanaraq vahid texniki siyasətə uyğun olaraq alınması məsələləri müzakirə olunub.

2022-ci ilin tədbirlər planına uyğun olaraq qurumların işğaldan azad edilmiş ərazilərdə mina və partlamamış hərbi sursatları təmizlənməsi fəaliyyətinə dair məlumatlarının müəyyən edilməsi vurğulanıb.

Müvafiq istiqamətlərdə aparılan mina və partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə tədbirləri və göstərilən ümumi fəaliyyət nəticəsində son aylarda mina hadisələrinin azalmasının müşahidə olunduğu qeyd edilib.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Vətən müharibəsinin şəhid polkovnik-leytenantı Həmdəm Ağayevin xatirəsi anılıb





Oktyabrın 30-da Milli Məclis Sədrinin müavini Adil Əliyev, parlamentin komitə sədri Bəxtiyar Əliyev, Müdafiə Nazirliyinin əməkdaşları və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə İkinci Fəxri xiyabanda ordumuzun şəhid polkovnik-leytenantı Həmdəm Ağayevin anım mərasimi keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, mərasimdə çıxış edən Adil Əliyev polkovnik-leytenant Həmdəm Ağayevin Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına vuruşaraq həlak olduğunu diqqətə çatdırıb. Həmdəm Ağayevin döyüş yoldaşları ilə birlikdə misli görünməmiş şücaət göstərərək Zəfərimizə töhfə verdiyini bildirib. Deyib ki, ölkəmizin ərazi bütövlüyü məhz Həmdəm kimi oğullarımızın canı-qanı bahasına təmin edilib. Biz hər zaman şəhidlərimizə borcluyuq, onların yadigar qalmış övladları həmişə dövlətimizin diqqət və qayğısı ilə əhatə olunacaq.

Milli Məclis Sədrinin müavini şəhidlərimizin xatirəsinin xalqımız üçün hər zaman əziz olduğunu vurğulayıb və Allahdan şəhidlərə rəhmət, qazilərə isə şəfa diləyib.

# Müdafiə naziri xidməti müşavirədə qoşunlara müvafiq tapşırıqlar verib

Oktyabrın 30-da müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri cəlb olunub. Azad olunmuş ərazilərdə dislokasiya olunan hərbi birlik komandirləri, o cümlədən digər məsul zabitlər isə müşavirəyə videobağlantı vasitəsilə qoşulublar.

Əvvəlcə qardaş Türkiyə Respublikasının hərbi qulluqçularını Cümhuriyyət Bayramı münasibəti ilə təbrik edən müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdırıb.

Dövlət rəhbərliyinin diqqət və qayğısı nəticəsində hərbi qulluqçuların xidmət və məişət şəraiti, o cümlədən mənəvi-psixoloji vəziyyətinin daha da yüksəldilməsi istiqamətində aparılan işlər barədə bir daha ətraflı məlumat verilib. Müşavirədə dövlət sərhədi və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikasının ərazilərindəki hazırkı vəziyyət təhlil edilib.

Nazir Azərbaycan Ordusunda qoşunların hazırlığına xüsusi diqqət yetirilməsi, şəxsi heyətin döyüş hazırlığı və ayıq-sayıqlığının daim yüksək səviyyədə saxlanılması, onlara təhlükəsizlik qaydalarının çatdırılması və bu qaydalara əməl olunmasına ciddi nəzarət edilməsi, döyüş planlarının dəqiqləşdirilməsi, həmçinin maddi-texniki təminat məsələlərinə xüsusi diqqət yetirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

Azad edilən ərazilərdə dislokasiya olunan hərbi hissələrdə qoşun xidmətinin təşkili, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi, hərbi infrastrukturun yaradılması, dağ yollarının çəkilməsi və onların daim işlək vəziyyətdə saxlanılmasının vacibliyi vurğulanıb.

General-polkovnik Z.Həsənov qış mövsümünü nəzərə alaraq bölmələrin fəaliyyətinin, xüsusilə dağlıq ərazilərdə xidmət edən bölmələrə lazımi ehtiyatların vaxtında çatdırılması məsələlərinin diqqətdə saxlanılması ilə bağlı müvafiq göstərişlər verib.

# Ankarada Qars müqaviləsinin yüz illiyi qeyd olunub

Ankarada "Qars müqaviləsinin yüzüncü ildönümü" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu, Diplomatiya Fondu, Elm, Təhsil, Sənət və İqtisadi Əməkdaşlıq Dərnəyi tərəfindən birgə təşkil olunan mərasimdə rəsmi şəxslər, diplomatlar, Türkiyədə yaşayan, təhsil alan və işləyən soydaşlarımız, alimlər, Ankara ictimaiyyətinin tanınmış nümayəndələri iştirak ediblər.

Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Tədbirin açılışında çıxış edən Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov Qars müqaviləsinin tarixi əhəmiyyətindən, bu anlaşmanın bölgədə və sənədi imzalayan tərəflər arasında münasibətlərin inkişafındakı rolundan, Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Qələbənin regionda yaratdığı yeni vəziyyətdən və s. məsələlərdən danışaraq tədbirə uğurlar arzulayıb.

Konfransın birinci panelinə sədrlik edən Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun rəhbəri professor Aygün Attar Qars müqaviləsinin tarixi əhəmiyyətindən, bu beynəlxalq sənədin Azərbaycan və Türkiyə dövlətlərinin həyatındakı rolundan və müasir siyasi vəziyyət üçün yaratdığı siyasi-hüquqi imkanlardan danışıb.

Sonra Azərbaycan Respublikası Milli Məclisinin deputatı, AMEA-nın müxbir üzvü professor Musa Qasımlının, habelə gürcüstanlı professor Otar Janelidzenin, dosentlər - Rusiyadan Aleksandr Sotnisenkonun, Türkiyədən Halil Özşavlının və gənc araşdırmaçı Turan Qafarlının çıxışları dinlənilib.

Professor Selma Yelin sədrlik etdiyi ikinci paneldə elmlər doktorları - Azərbaycandan Cavid Vəliyev, Rusiyadan Yevgeni Baxrevski, Türkiyədən dosent Oğuzhan Bilgin, vəkil Fərhad Aznevi və azərbaycanlı hüquqşünas Elvin Budaqov çıxış ediblər.

Qeyd olunub ki, erməni silahlı birləşmələrinin türk-müsəlman əhalisinin doğma yurdu olan böyük bir coğrafiyadakı antibəşəri əməllərinin acı izləri Qars müqaviləsindən sonrakı illərdə də uzun zaman kəsiyində yaddaşlardan silinməyib. Bölgədə tapılan türk-müsəlmanlara aid kütləvi məzarlıqlar bu cinayətlərin ağır nişanəsidir.

Diqqətə çatdırılıb ki, türk dünyasının liderləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin tarixi missiyaları əsasında bir millət, iki dövlət anlayışı ilə müttəfiqlik zirvəsinə yüksəldilmiş Azərbaycan-Türkiyə dostluq və qardaşlığı bu gün regionda əmin-amanlığın və sabitliyin təminatıdır.

Vətən müharibəsində Türkiyə dövlətinin Azərbaycana göstərdiyi siyasi-mənəvi dəstəkdən söz salan çıxışçılar vurğulayıblar ki, Qars müqaviləsinə əsaslanan siyasi müttəfiqliyimiz 100 ildən sonra Şuşa Bəyannaməsi ilə bir daha təsdiq olunub. Şuşa Bəyannaməsi Azərbaycanın rəşadətlə başa çatdırdığı 44 günlük Vətən müharibəsinin yaratdığı yeni geosiyasi vəziyyətin qorunmasının zəmanətçisinə çevrilib. Hazırda həm ikitərəfli münasibətlərimiz, həm də regional əməkdaşlığımız yeni mərhələyə yüksəlib.

Qars müqaviləsinin əsas prinsipi ondan ibarətdir ki, Ermənistan bölgədəki ölkələrə qarşı ərazi iddialarından tamamilə əl çəkir. Bu sənəd sübut edir ki, Ermənistan o zaman da Türkiyəyə, Gürcüstana və Azərbaycana qarşı əsassız torpaq iddialarında olub. Bu müqavilə Azərbaycanı və Türkiyəni Ermənistana qarşı güclü edən bir sənəddir. Qars müqaviləsinin imzalanması Şuşa Bəyannaməsinin və Azərbaycan, Türkiyə, Pakistan parlament sədrlərinin imzaladığı Bakı Bəyannaməsinin həyata vəsiqə qazanması üçün hüquqi zəmin yaradıb. Sözügedən müqavilənin beşinci maddəsinə əsasən, Türkiyə, Ermənistan və Azərbaycan hökumətləri razılığa gəlirlər ki, Naxçıvan vilayəti bu müqavilənin 3-cü əlavəsində müəyyən edilən sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi yaradır.

Panellərdən sonra qarslı aşıqların ifasında bədii proqram təqdim olunub.

# İdarələrarası Mərkəzin Enerji təminatı məsələləri üzrə İşçi Qrupunun iclası keçirilib



Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Enerji təminatı məsələləri İşçi Qrupunun videokonfrans formatında növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Şuşa şəhərinin əsas bina və obyektlərinin istilik enerjisi ilə təmin olunması üzrə görülən işlərlə bağlı aparılmış növbəti monitorinqin nəticələri haqqında məlumat verilib, enerji təminatında keyfiyyətin və davamlılığın təmin olunmasına dair müzakirələr aparılıb. İstilik qazanxanalarının tikintisi istiqamətində görülən işlərin cari vəziyyəti nəzərdən keçirilib, lazımi avadanlıqların və materialların daşınması və quraşdırılması ilə bağlı həyata keçirilən tədbirlər diqqətə çatdırılıb. Qazanxanaların noyabr ayından etibarən istilik mövsümünə tam hazır olacağı bildirilib.

İşğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkət cəlb edilməklə hazırlanmış layihəsinə dair təqdimat nümayiş etdirilib, konsepsiya haqqında ətraflı məlumat verilib, suallar cavablandırılıb. Qarabağ və Şərqi Zəngəzurun enerji təminatında bərpa olunan enerji mənbələrindən maksimum istifadə edilməsinin və enerji dəyər zənciri mərhələlərində ekoloji təmiz, enerjisəmərəli, müasir və innovativ texnologiyaların tətbiqinin nəzərdə tutulduğu bildirilib. Enerji tələbatı və təchizatı ssenarisinin müəyyən edilməsi məqsədilə konsepsiya çərçivəsində 3 ssenari üzrə təhlillər aparıldığı vurğulanıb.

İşçi Qrupuna daxil olan müvafiq qurumların nümayəndələri tərəfindən işğaldan azad edilmiş ərazilərdə enerji obyektlərinin yenidən qurulması, zəruri infrastrukturun bərpası üzrə həyata keçirilən tədbirlər, ötən iclasda qəbul edilmiş qərarların icrası istiqamətində görülən işlərin icra vəziyyəti və gələcək planlar barədə məlumat verilib.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Qarabağ Rəqəmsal Geoİnformasiya Sisteminə qoşulmanın və məlumat mübadiləsinin vəziyyətinə dair növbəti hesabat dinlənilib. İşçi Qrupunun üzvü olan aidiyyəti dövlət qurumları tərəfindən sistemə daxil ediləcək müvafiq məlumatların mütəmadi yenilənməsinin vacibliyi vurğulanıb.

İclasda İşçi Qrupunun fəaliyyətindən irəli gələn digər cari məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Vətən müharibəsi şəhidləri yad edilib



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarını fəda edən şəhidlərin ruhlarına ehtiram məqsədilə "Şəhidlər ölməz - Vətən bölünməz!" tədbirlər silsiləsi çərçivəsində növbəti anım mərasimi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Vətən müharibəsi şəhidləri Ülvi Rəfiyev və Saday Məmmədəliyevin xatirəsinə həsr olunan anım mərasimində onların ailə üzvləri, dostları, döyüş yoldaşları, Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra tədbir iştirakçılarına hər iki şəhidin şərəfli ömür və döyüş yolundan bəhs edən videoçarx təqdim olunub.

Tədbirdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun düşmən üzərində qazandığı parlaq Qələbədən, Vətən müharibəsində Azərbaycan oğullarının göstərdiyi qəhrəmanlıq və şücaət nümunələrindən söhbət açılıb.

Şəhidlərin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya, eləcə də övladlarının xatirəsinin uca tutulduğuna görə dövlət başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən musiqilər ifa edib.

# *Leyla ABDULLAYEVA:* "Bir terrorçunun azadlığa buraxılması təhlükəli olmaqla yanaşı, terrorçuluğun təşviqinə xidmət edir"

"ABŞ-ın Los-Anceles şəhərində 1982-ci ildə Türkiyə diplomatı Kamal Arıkanı qətlə yetirən erməni terrorçu, ASALA-nın üzvü Ambik Sassunyanın həbsdən azad edilməsi qərarını pisləyirik. Bir terrorçunun azadlığa buraxılması təhlükəli olmaqla yanaşı, terrorçuluğun təşviqinə xidmət edir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva erməni terrorçu Ambik Sassunyanın həbsdən azad edilməsinə münasibət bildirərkən ifadə edib.

O deyib: "Həbsdə olarkən, 2012-ci ildə "Hay Zinvor" adlı erməni hərbi jurnalına verdiyi müsahibəsində A.Sassunyanın erməni əsgəri olduğu və Azərbaycanın o zaman işğal altında olan Qarabağ ərazisində döyüşməyə hazır olduğunu bildirməsi bu terrorçunun heç də islah olmadığını nümayiş etdirir.

Ermənistan KİV-də yayılmış məlumata əsasən, bu ölkədə olduğu bildirilən terrorçunun hər hansı şəkildə qəhrəmanlaşdırılması cəhdlərinin qarşısı alınmalıdır".

# Məhsulların sertifikatlaşdırılması ixrac imkanlarını genişləndirir

*Əvvəli 1-ci səh.*

İxracın strukturunda xam neft, təbii qaz, neft-qaz məhsulları, meyvə-tərəvəzlər, plastik kütlə və ondan hazırlanan məmulatlar, pambıq lifi və ipliyi, alüminium və ondan hazırlanan məmulatlar, kimya sənayesi məhsulları, həmçinin qara metallar və ondan hazırlanan məmulatlar, şəkər, bitki yağları, alkoqollu və alkoqolsuz içkilərin payı üstünlük təşkil etmişdir. İxrac məhsullarının çeşidi ölkəmizin hansı inkişaf yolu keçdiyini aydın şəkildə göstərir. Belə ki, əvvəllər Azərbaycan yalnız neft və neft məhsullarını ixrac edirdi. Hazırda xarici bazara satılan qeyri-neft məhsullarının tərkibi genişdir. Bu da ölkəmizin hərtərəfli inkişafı ilə bağlı aparılan genişmiqyaslı iqtisadi islahatların müsbət nəticəsidir.

Dövlət qeyri neft-qaz sektorunda istehsal olunan məhsulların dünya bazarına çıxarılması üçün sahibkarlara dəstək verir. Məlumdur ki, xarici bazarda ciddi rəqabət hökm sürür. Burada məhsulların satılması üçün müxtəlif prosedurlara əməl edilməsi vacibdir. Məhsul ixracında onun sertifikatlaşdırılması mühüm rol oynayır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin innovativ layihəsi olan Azexport.az portalı "Made in Azerbaijan" məhsullarına növbəti sərbəst satış sertifikatını təqdim edib. Həmin sertifikatlar ölkəmizdə istehsal olunan 25 növdə meyvə şirəsi və spirtsiz içkilərin ixracı üçün nəzərdə tutulub. Təqdim olunan sertifikatlar sayəsində bu məhsulların İndoneziya, İordaniya və İraq bazarlarına satışında olan maneələr aradan qaldırılıb. Onu da vurğulayaq ki, ölkəmiz MDB məkanında sərbəst satış sertifikatı təqdim edən üçüncü ölkədir. Verilən bu sənədlər 100-dən çox Amerika qitəsi, Asiya, Okeaniya və Körfəz ölkələri bazarlarına "Made in Azerbaijan" məhsullarının ixracında yaranan maneəni aradan qaldırıb.

Azərbaycanın iqtisadi artım tempi aybaay sürətlənir. Bu fikirləri İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib. Onun sözlərinə görə, 2021-ci ilin ilk 9 ayında Azərbaycanda ÜDM-in artım tempi 6,2 faiz böyüyən qeyri-neft sektorunun drayverliyilə 4,8 faiz qeydə alınıb. BVF Azərbaycan iqtisadiyyatının bu il 3 faiz artmasını proqnozlaşdırır ki, bu da əvvəlki proqnozları üstələyir və milli iqtisadiyyata güvənin artmasını göstərir. Lakin milli iqtisadiyyatın artım tempi həm BVF-nin, həm də Dünya Bankının proqnozlarını əhəmiyyətli şəkildə üstələyir. Artıq Azərbaycanda iqtisadi artım tempi "Dünya iqtisadi icmalı"nda Orta Şərq və Mərkəzi Asiya üçün proqnozlaşdırılan 4,1 faizlik həddi üstələyib.

Vüsal Qasımlı bunun əsas səbəbini yüksək sənayeləşmə tempində görür. Azərbaycanda ÜDM istehsalının 40,1 faizi sənayenin payına düşür ki, bu da orta dünya göstəricisi olan 24,8 faizdən əhəmiyyətli dərəcədə üstündür. Belə ki, sənayenin ÜDM-də payı Mərkəzi Avropa və Baltik ölkələrində 27,2 faiz, Avrozonada 21,5 faiz və OECD ölkələrində 21,1 faizdir. Azərbaycanda sənayenin strukturunda da qeyri neft-qaz sektorunun xüsusi çəkisi daha sürətlə artır və Azərbaycan dördüncü sənaye inqilabının tələblərinə uyğun inkişaf edir.

İcraçı direktor həmçinin postkonflikt quruculuğu, tədiyyə və icmal büdcə balanslarının profisiti şəraitində makroiqtisadi fundamentalların iqtisadi artımı stimullaşdırdığını bildirir. BVF-nin proqnozlarına əsasən, Azərbaycanın cari əməliyyatlar hesabının ÜDM-ə nisbəti cari ildə 7,8 faiz təşkil etməklə Orta Şərq və Mərkəzi Asiyanın eyniadlı göstəricisi - 1,7 faizdən əhəmiyyətli şəkildə üstün olacaq. Proqnozlara əsasən, Azərbaycan cari əməliyyatlar hesabının ÜDM-ə nisbəti göstəricisinə görə bu il Orta Şərq və Mərkəzi Asiya bölgəsində ilk üçlükdə qərarlaşacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



QARABAĞ
dirçəliş yolundadır





# Azərbaycan-Türkiyə qardaşlığının növbəti təntənəsi

## Bu qardaşlıq dövlət başçıları səviyyəsində daha yüksək zirvələrə ucalır

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı azad edilmiş torpaqlarda fəaliyyət göstərən Türkiyə şirkətlərinə təşəkkür etmişdir: "Onların yorulmaz səyləri nəticəsində bu gün bu bölgədə yollar salınır, dəmir yolları çəkilir, tunellər tikilir, infrastruktur layihələri gerçəkləşir. Bu, bir daha bizim birliyimizin, qardaşlığımızın təcəssümüdür".

Prezident Rəcəb Tayyib Ərdoğan bəyanatında Azərbaycanın işğaldan azad edilən bölgələrinin qısa müddət ərzində dirçəldiyini, sürətlə inkişaf etdiyini diqqətə çatdırmış, Azərbaycan Prezidentinin bu istiqamətdə atdığı addımları qürurla belə qiymətləndirmişdir: "Bu, hər igidin, hər siyasətçinin işi deyil. Bu qədər qısa müddətdə bu investisiyaları yatırmaq, bu işləri həyata keçirmək, inanıram ki, doğma yurdundan ayrılmağa məcbur qalmış azərbaycanlı qardaşlarım üçün buradan bir müjdə vermək imkanı yaradır".

Rəcəb Tayyib Ərdoğan Füzulini bir tərəfdən Şuşa, digər tərəfdən də cənub sərhədi boyunca Ağbənd, gələcəkdə isə Naxçıvanla birləşdirəcək yolların inşa edildiyini gördüyünü, bu kommunikasiyaların bölgədə çoxtərəfli daşımaların əsasını təşkil edəcəyini bildirmişdir: "Azərbaycan bütün dünyaya örnək olacaq inkişaf modeli ilə bu bölgənin inkişafı üçün fəaliyyətini davam etdirir. Burada hər şeydən əvvəl təməlini qoyduğumuz, - bir az əvvəl cənab Prezidentin də dediyi kimi, - istər tunellər, istər yol ötürücüləri, istər avtomobil yolları bərpa işlərinin sürətlə həyata keçirilməsi baxımından çox önəmlidir. Bu fəaliyyətə liderlik edən İlham qardaşımı və əməyi keçən hər kəsi ürəkdən təbrik edirəm".

Qeyd edək ki, sonuncu səfər çərçivəsində keçirilən görüşlərdə ikitərəfli əlaqələr və regional proseslər ətraflı müzakirə olunmuş, davamlı sülhü təmin edə bilən geniş imkanların mövcudluğu etiraf edilmiş, bu inkişafdan İran, Gürcüstan, Ermənistan da daxil olmaqla, Azərbaycanın bütün qonşularının faydalana biləcəyinə diqqət yetirilmişdir. Ərdoğan bəyanatında demişdir: "Bu məsələlərdə Ermənistan Azərbaycan ilə problemlərini həll etmək istiqamətində səmimi bir iradə göstərməlidir. Əgər Azərbaycan ilə bağlı səmimi iradə ortaya qoyarsa, Türkiyənin Ermənistan ilə əlaqələrinin də normallaşması üçün bir maneə qalmayacaq. Bütün bölgə üçün birlikdə qurulacaq firavan gələcəyi kiçik hesablara və daxili siyasətə qurban vermək vaxt itkisi mənasına gələcək".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Qubadlının tarixi günü

Bu günlərdə qalib Azərbaycan öz əzəli Qarabağ torpaqlarının Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsinin ildönümlərini qeyd edir. 2020-ci il oktyabrın 25-i isə Qubadlıda erməni təcavüzünə son qoyulan gün kimi tariximizə yazılıb. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.

Prezident İlham Əliyev Qubadlı rayon sakinlərinə "...Qubadlıya xoş gəlmisiniz", - dedi. Dövlət başçısı oktyabrın 25-nin Qubadlı rayonunun tarixində əlamətdar və tarixi bir gün olduğunu vurğuladı: "Düz bir il bundan əvvəl müzəffər Azərbaycan Ordusu Qubadlını erməni işğalından azad etmişdir və bundan sonra 25 oktyabr bizim tariximizdə əbədi Zəfər günü kimi qeyd ediləcək. Bu münasibətlə sizi və bütün qubadlılıları, bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm".

Bu günü nəinki qubadlılılar, bütün Azərbaycan xalqı otuz ilə yaxın müddətdə gözlədi. 1993-cü il avqustun 31-də Azərbaycanın qədim bölgələrindən olan Qubadlının erməni qəsbkarları tərəfindən işğalı xalqımızı kədərə, yasa boğdu... O gün Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən ərazilərimizdəki dədə-baba yurdlarını, isti ocaqlarını tərk etmək məcburiyyətində qalan qubadlılıların məcburi köçkün həyatı başladı. Rayon sakinləri respublikanın müxtəlif yaşayış məntəqələrində müvəqqəti yerləşdirildi.

İşğal müddətində Ermənistan Qubadlıda hərbi cinayətlər törətməkdən çəkinmədi. Rayonun Xanlıq kəndində hərbi istehkam, hərbi baza qurdu. Təcavüzkar ermənilər işğal etdikləri digər ərazilərimiz kimi, Qubadlının da zəngin təbiətinə ciddi ziyan vurdu, ərazidəki bütün tikililəri dağıtdılar.

2020-ci il sentyabrın 27-dən - İkinci Qarabağ müharibəsinin başlandığı gündən Azərbaycan xalqı böyük ümid, həyəcan və inamla cəbhədən xoş xəbərlər gözlədi. Dövlətinin və xalqının misilsiz gücü, etimadı ilə rəşadətli Azərbaycan ordusu otuz ilə yaxın erməni işğalında qalan vətən torpağının hər qarışı uğrunda mübarizə apardı.

Oktyabrın 20-də Azərbaycan Ordusu Zəngilan şəhərini işğaldan azad etdikdən sonra istiqamət Qubadlı rayonu idi. Rayonun azad olunması məqsədilə Azərbaycan Silahlı Qüvvələri tərəfindən 2020-ci il oktyabrın 22-də hərbi əməliyyatlara başlanıldı. Gərgin, şiddətli döyüşlər bir neçə gün davam etdi.

Ermənistan otuz ilə yaxın işğal altında saxladığı və xarabalığa çevirdiyi Azərbaycan ərazilərində hərbi bazalar yaratmışdı. Onlar Qubadlı şəhərinin girəcəyində də hərbi baza, istehkamlar qurmuşdular. Ərazinin yüksəkliklərində də erməni ordusunun hərbi birləşmələri yerləşmişdi. Qubadlını azad etmək üçün əvvəlcə düşmənin müntəzəm olaraq hərbçilərimizi atəşə tutduqları yüksəkliklər götürülməli idi. Xüsusi peşəkarlıq və fədakarlıq tələb edən Qubadlı döyüşlərində Azərbaycan Ordusu addım-addım qələbəyə yaxınlaşdı. Azərbaycanın igid, vətənpərvər oğulları döyüş meydanında yağı düşmənə layiqli cavab verdilər. Erməni silahlı qüvvələri ağır zərbələr alaraq geri çəkilməli oldular. Strateji yüksəkliklər, ətrafda yerləşən kəndlər ələ keçirildi. Bundan sonra, oktyabrın 25-də Qubadlı şəhəri düşməndən təmizləndi.

25 oktyabr 2020-ci ildə gözlənilən xoş müjdəni Azərbaycan xalqına Prezident, Ali Baş Komandan İlham Əliyev verdi. O, Qubadlının rəşadətli Azərbaycan Ordusu tərəfindən işğaldan azad edildiyini bəyan etdi...

Artıq tarixə çevrilmiş o xoş xəbərli günün bir ilinin tamamında Prezident İlham Əliyev Qubadlı zəfərimizdən danışdı: "25 oktyabr müharibənin gedişatında önəmli yer tutub. Çünki Qubadlı azad olunandan sonra Laçın istiqamətində yolumuz açıldı və bir neçə gündən sonra biz Laçının cənub hissəsində yerləşən kəndləri də azad etdik. Beləliklə, Laçın dəhlizini nəzarətə götürdük və artıq müharibənin taleyi həll edilmişdi. Düzdür, hələ Şuşa uğrunda şiddətli döyüşlər qabaqda idi, digər yaşayış məntəqələrimizin azad olunması ilə bağlı əməliyyat planları hazırlanırdı, ancaq artıq həm bütün dünya, həm də düşmən gördü ki, bizim qabağımızda heç bir qüvvə dayana bilməz. Biz Qubadlıdan sonra öz Zəfər yürüşümüzü, Zəfər missiyamızı şərəflə davam etdirdik və noyabrın 8-də Şuşada dövlət bayrağını ucaltdıq".

Dövlət başçısı hər bir yaşayış məntəqəsinin azad edilməsinin tarixi hadisə olduğunu, ilk gündən başlayaraq müharibənin son gününə qədər Azərbaycan Silahlı Qüvvələrinin ancaq irəli getdiyini qürurla qeyd etdi: "Uzun illərdən sonra bu Qələbə sevincini biz hamımız yaşadıq və o vaxt, əlbəttə, heç kim deyə bilməzdi müharibə nə qədər davam edəcək. Hətta noyabrın 8-də biz Şuşanı işğaldan azad edəndən sonra da mən şəxsən deyə bilməzdim müharibə nə qədər davam edəcək. Çünki bizim planlarımız işğalda olan bütün torpaqları azad etmək idi. Ancaq bilmirdik düşmən nə vaxt təslim olacaq. Halbuki müharibə zamanı mən dəfələrlə öz çıxışlarımda, xalqa müraciətlərimdə və xarici jurnalistlərə müsahibələrdə deyirdim ki, əgər düşmən bizə bizim torpağımızdan çıxması ilə bağlı tarix versə, biz müharibəni dayandırmağa hazırıq və bu sözə də əməl etdik. Bildiyiniz kimi, noyabrın 9-da artıq Ermənistan tərəfi də öz məğlubiyyətini qəbul edib, etiraf edib, bu məğlubiyyətlə barışıb və noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Biz isə Zəfər gününü məhz 8 noyabr tarixdə qeyd edirik. Çünki 8 noyabrda erməni ordusu artıq təslim olmuşdu".

Bu gün şanlı Qələbədən danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik. Şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaq, Azərbaycan xalqı, indiki nəsil və gələcək nəsillər həmişə şəhidlərimizlə fəxr edəcək. Dövlət başçısı onlardan birini - Qubadlı rayonunun sakini, böyük qəhrəmanlıq göstərmiş və doğma rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına dünyasını dəyişmiş, ən istedadlı və cəsarətli hərbçilərimizdən olmuş Şükür Həmidovu yad etdi. Onun Aprel döyüşlərində böyük qəhrəmanlıq göstərdiyini diqqətə çatdırdı: "Məhz bu qəhrəmanlığa görə mən ona Milli Qəhrəman adını verdim və özüm də şəxsən onu bu mükafatla təltif etdim", - dedi. Prezident İlham Əliyev bildirdi ki, o, bütün hərbçilərimiz üçün, gənc nəsil üçün nümunədir, öz canını doğma diyar uğrunda fəda edib və şəhadət zirvəsinə ucalıb: "Azad edilmiş bütün şəhər-kəndlərimizdə bərpa işləri başa çatandan sonra şəhidlərimizin adına küçələr qoyulacaq, onların adı məktəblərə veriləcək. Artıq bu proses başlamışdır. Ölkəmizin müxtəlif bölgələrində, o cümlədən bu bölgədə - Qarabağ-Zəngəzur bölgəsində bütün bərpa işləri başa çatandan, küçələr salınandan, məktəblər tikiləndən sonra bu da olacaq".

Bu günlər erməni işğalından azad edilmiş ərazilərimizi ziyarət edən həmvərənlərimiz həm qürur, həm də dağıntılara görə təəssüf hissi keçirirlər. Çünki qəddar düşmən bütün tikililəri məhv edib, yaşayış məskənlərimizi dağıdıblar. Prezident İlham Əliyev hələ ötən il oktyabrın 25-də xalqa müraciətində demişdi: "Düzdür, o kəndlərdən bir şey qalmayıb. Eybi yoxdur, bərpa edəcəyik. Azərbaycan xalqının da, dövlətinin də buna gücü çatacaq. Təki torpağımız azad olsun. Təki bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarda qaldırılsın. Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik".

Qubadlı zəfərinin ildönümündə Prezident İlham Əliyev bir daha qeyd etdi ki, bütün kəndlər dağılıb, şəhər dağıdılıb, bir dənə də salamat kənd qalmayıb. Ona görə qubadlılıları buraya yerləşdirmək üçün əlbəttə ki, çox böyük işlər görüləcək.

Prezident İlham Əliyev diqqətə çatdırdı ki, müharibə başa çatıb və düzdür, bizi hələ döyüşməyə məcbur edirlər, biz də hazırıq: "İstənilən formada, necə deyərlər, meydançada - istər siyasi meydanda, istər hərbi meydanda. Biz artıq göstərmişik ki, heç kimin qabağında baş əyən xalq deyilik. Ancaq bununla yanaşı, bizim qarşımızda çox böyük quruculuq işləri dayanır. Bu da müharibədə əldə edilmiş Qələbəyə uyğun səviyyədə aparılmalıdır. Ümumiyyətlə, bu tarixi Zəfərdən sonra ölkəmizin yeniləşməsi, müasirləşməsi, aparılan islahatlar, xoşagəlməz hallarla mübarizə, əlbəttə, tam yeni müstəviyə çıxmalıdır. Çünki bu Qələbə bütün dünyaya bizim böyük xalq olduğumuzu göstərdi, eyni zamanda, bizi sözün yaxşı mənasında məcbur edir ki, biz qabağa ancaq düz yolla gedək".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***





# Fransa portalı Füzuli Beynəlxalq Hava Limanının açılışından yazıb







Fransanın "Musulmans en France" www.musulmansenfrance.fr xəbər portalında Azərbaycanın yeganə fransızdilli mətbu orqanı "Le Carrefour" (Yol qovşağı) qəzetinin təsisçisi, jurnalist Zeynab Kazımovanın "Füzuli Hava Limanının açılış mərasimi" sərlövhəli məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılışından söz açan jurnalist mərasimdə prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirak etdiklərini bildirib, bunun Türkiyə Prezidentinin Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Qələbəsindən sonra Qarabağa ikinci səfəri olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan hava limanının tikintisi işlərini 8 ay ərzində başa çatdırıb. Bu il sentyabrın 5-də aeroportda sınaq uçuşu həyata keçirilib. Xatırladıb ki, Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə bu il iyunun 15-də Şuşa şəhərində Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmləndirilməsi haqqında Şuşa Bəyannaməsi imzalanıb.

Qeyd olunub ki, Azərbaycan və Türkiyə prezidentləri, eyni zamanda, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikinti işlərinin gedişi ilə tanış olub, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) təməl daşının qoyublar. Yazıda Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi çərçivəsində görülən işlər barədə də prezidentlərə məlumat verildiyi vurğulanıb.

Prezidentlərin Zəngilan rayonunun Ağalı kəndində təkbətək görüşünə və mətbuata birgə bəyanatlarına toxunan müəllif Prezident İlham Əliyevin çıxışında Zəngəzur dəhlizi ilə bağlı söylədiyi fikirlərə diqqət çəkib.

Zeynab Kazımova bildirib ki, siyasi şərhçilər ordumuzun 44 günlük müharibədə Qələbəsindən sonra Türkiyə Prezidentinin Qarabağa ikinci səfərini Azərbaycan-Türkiyə münasibətlərində yeni dövrün başlanğıcı kimi qiymətləndirirlər. Gələn ay Azərbaycanın Türk Şurasına sədrliyini Türkiyəyə təhvil verəcəyini qeyd edən müəllif mətbuat konfransında çıxış edən dövlətimizin başçısından bu sitatı təqdim edib: "Türkdilli dövlətlər arasında əməkdaşlıq və qardaşlıq əlaqələri daha da möhkəmlənəcək, bununla da bütün türk dünyası üçün yeni imkanlar açılacaqdır".

Müəllif yazıb ki, Füzuli Beynəlxalq Hava Limanının açılışı ilə yanaşı, uzun illər ermənilər tərəfindən dağıdılmış Qarabağın müxtəlif bölgələrində yeni layihələrin təməlinin qoyulması həm iki ölkə, həm bölgə, həm də dünyanın digər dövlətləri üçün çox mühüm hadisədir. Zəngəzur dəhlizi təkcə iki ölkə arasında münasibətlərin deyil, həm də regionun inkişafına töhfə verəcək.

Z.Kazımova, həmçinin yazıb ki, Azərbaycan və Türkiyə prezidentlərinin Zəngilanda verdikləri bəyanatlar Şuşada səsləndirilən fikirlərin davamıdır. Onlar regionun sabitliyindən, qonşu dövlətlər, o cümlədən Türkiyə, Azərbaycan, Gürcüstan, Rusiya, İran və təbii ki, Ermənistanla münasibətlərdən danışdılar. Çünki bölgədə yeni vəziyyət yaranıb. Azərbaycan ərazi bütövlüyünü bərpa edib və sülhün bərqərar olmasına çalışır. Bu, Ermənistan üçün də maraqlı olmalıdır. Çünki sülh sazişi çərçivəsində regional əməkdaşlıq, nəhayət, inkişaf edə və Ermənistan bu prosesdə iştirak edə bilər. Ona görə də Ermənistanın Azərbaycanla problemlərini həll etmək üçün səmimi istək nümayiş etdirməsi vacibdir. Türkiyə Prezidentinin vurğuladığı kimi: "Azərbaycan üçün səmimi iradə olarsa, Türkiyənin Ermənistanla münasibətlərinin normallaşmasına heç bir maneə olmayacaq... Bir daha vurğulayıram ki, Türkiyə eyni konstruktiv anlayışla davamlı sülhə doğru hər addımı müsbət atacaq".

Sonda 1991-ci il oktyabrın 18-də Azərbaycanın müstəqilliyini bərpa etməsinə toxunan jurnalist vurğulayıb ki, Fransa ölkəmizin müstəqilliyini tanıyan ikinci ölkə olub. Rəsmi Paris 1992-ci ilin fevralında Bakıda öz səfirliyini açıb. Həmin il martın 2-də isə Azərbaycan müstəqil dövlət kimi Birləşmiş Millətlər Təşkilatına üzv qəbul edilib.

# *Ukraynalı politoloq:* "Azərbaycanda baş vermiş hadisə gələcəkdə bütün türk dünyasına təsir göstərə bilər"

"Oktyabrın 26-da Azərbaycanda baş vermiş hadisə gələcəkdə təkcə Türkiyə və Azərbaycanın siyasətinə deyil, bəlkə də bütün türk dünyasının siyasətinə təsir göstərə bilər. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Füzuli Beynəlxalq Aeroportunun açılışı və Zəngəzur dəhlizinin təməlinin qoyulması mərasimində iştirak ediblər".



Bu sözləri siyasi elmlər namizədi, politoloq Aleksey Buryaçenko AZƏRTAC-a müsahibəsində söyləyib.

Onun sözlərinə görə, Füzuli aeroportu sadəcə növbəti aeroport deyil, Azərbaycan Qarabağda bu aeroportu cəmi səkkiz ay ərzində inşa edib. Bu aeroportdan bütün genişfüzelyajlı təyyarələr, o cümlədən böyük yük təyyarələri uçuşlar həyata keçirə biləcəklər. Gözlənildiyinə görə, hazırda Qarabağın səma qapıları adlanan aeroport regionda turizmin və ticarətin inkişafına şərait yaradacaq.

Aleksey Buryaçenko daha sonra deyib: "İki ölkənin prezidentləri tərəfindən Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisinin və Zəngilanda Türkiyənin dəstəyi ilə yaradılacaq "ağıllı aqropark"ın təməlinin qoyulması da Füzuli aeroportu kimi genişmiqyaslı layihədir".

Politoloq vurğulayıb ki, Azərbaycan hökumətinin dəfələrlə bəyan etdiyi kimi, bu iki ölkə böyük infrastruktur layihələrinin həyata keçirilməsi hesabına Azərbaycanın nəzarəti altına qaytarılmış əraziləri sənaye və turizm mərkəzlərinə çevirməyə çalışır. Bu, həmin regionlardakı evlərini tərk etməyə məcbur olmuş insanlar üçün müsbət siqnal olacaq.

A.Buryaçenko daha sonra deyib: "Azərbaycan və Türkiyə tərəfindən bu cür genişmiqyaslı birgə layihələrin həyata keçirilməsi iki ölkə arasında əməkdaşlığın daha da möhkəmlənməsinə şərait yaradacaq. Türkiyə coğrafi baxımdan Azərbaycana ən yaxın türkdilli ölkədir. Şübhə yoxdur ki, indi Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyət dəyişiklikləri baş verir. Azərbaycan Türkiyə ilə birlikdə tarix yazır. Bu iki ölkənin münasibətləri strateji tərəfdaşlıqdan növbəti, keyfiyyətcə yeni səviyyəyə keçir".



# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# Zəfər yolunun silahdaşları






*Atəş səsləri getdikcə güclənirdi. Artilleriyamız düşmənin uzun illərdən bəri işğal etdiyi Füzulinin Aşağı Əbdürrəhmanlı, kənd Horadiz və Qaraxanbəyli kəndlərini mərmi yağışına tutmuşdu. Bu yurd yerlərimizin azad edilməsi uğrunda ağır döyüşlər səngimir, igidlərimizin sərrast həmlələri düşmənə göz açmağa aman vermirdi.*

Bəhram yaxınlıqdakı silah yoldaşlarının namərd gülləsinə tuş gəldiyini görüb, onlara tərəf şığıdı. Ölümsaçan mərmilər onu əsla qorxutmurdu. Gah yerə yatır, gah da kol-kosun içi ilə dizin-dizin sürünürdü. Qumbaraatanın qəlpələri başı üzərində amansızcasına "dövrə vurub" yerə sancılır, ətrafdakı seyrək, adda-budda kolları, daş-qayanı belə yandırıb yaxırdı. Cəbhə yoldaşlarına köməyə tələsən gənc döyüşçü uca Tanrının hökmüylə sağ qalmışdı. Yağı gülləsindən qurtulduğuna görə bir an şaşırmışdı. Çaşqınlıq içində ətrafa boylananda yanında qardaşı İmanı gördü. Onunla eyni gündə orduya yollanan doğma qardaşını, çiyindaşını. İman Bəhramı odun-alovun içində tək qoymayıb ardınca gəlmişdi. Əsgər dostları Qiyasa yaxınlaşanda ürəkağrıdan mənzərə ilə qarşılaşdılar. Yaxınlıqda qumbara partladığından onun bədənində iri yaralar açılmışdı. Onlar şəhid olmuş igidlərin cəsədlərini, neçə yaralını ön xətdən çəkib çıxardılar. İlk yardım göstərilən yaralılar təxliyə olundu.

Dörd saat davam edən döyüş səngimiş, əsgərlərimizin qələbəsi ilə başa çatmışdı. Düşmən susdurulmuş, silah-sursatını, hərbi texnikasını döyüş meydanında atıb geri çəkilmişdi. Uğurlu əks-hücum əməliyyatından sonra əsgərlərimiz azad etdikləri yerlərdə döyüş mövqelərini möhkəmləndirir, intizarında olduğumuz Zəfər gününə aparan sabahları gözləyirdilər. İman və Bəhramın da daxil olduğu taqımın əsgərləri Füzulidəki kanal ətrafında və erməni quldurların möhkəmləndiyi beton sədlərin yaxınlığında gedən döyüş əməliyyatlarında, habelə Cəbrayılın kəndlərinin alınmasında nər kimi vuruşur, şücaət göstərirdi. Bu taqım Cəbrayılın düşməndən təmizlənmiş Daşkəsən kəndində komplektləşdiriləndən sonra yenidən döyüşlərə atılacaq, neçə-neçə yurd yerimizi əsarətdən azad edəcəkdi...

## "Əliniz millətimin qanına batıb"

Bu yazının qəhrəmanları - İman və Bəhram Məmmədzadə qardaşları yurdumuzun cənub bölgəsində - Lerikdə dünyaya göz açmış, Bakıdakı fizika-riyaziyyat təmayüllü liseyi bitirmişlər. Rusiyanın Həştərxan vilayətindəki Dəniz Gəmiçiliyi Akademiyasına qəbul olunmuş, Samaradakı bu qəbildən olan akademiyada təhsillərini başa vurmuşlar. Təhsillərini Samarada davam etdirmələrinin səbəbi düşünməyə sövq edən bir hadisə ilə bağlıydı. Tarix müəlliminin Bakıda baş verən 20 Yanvar faciəsi və az sonra soydaşlarımıza qarşı törədilmiş Xocalı soyqırımı barədə suallarını cavablandıran İman bu qətliamların erməni şovinizminin fitvası ilə xalqımızın azadlıq hərəkatına və Azərbaycanın əzəli torpaqlarının bölünməzliyi uğrunda mübarizəsinə qarşı yönəldiyini söyləmişdi. Bu məğrur gəncin cəsarətli cavabından qeyzlənən ermənipərəst müəllim onunla kəskin mübahisəyə girişmişdi. O, tələbəsinin hazırcavablığı və gerçəyi söyləməsi ilə heç vəchlə barışa bilmirdi. Burada çalışan erməni müəllimlər həmin hadisədən sonra İman və Bəhrama qarşı əks-təbliğat apararaq, qara piara başlamış, doğma Azərbaycanını sevən bu qürurlu gənclərin digər təhsil müəssisəsinə köçürülməsinə nail olmuşdular. Bu işin sürətlənməsinin bir səbəbi də bu qardaşları daim əsəbiləşdirən, qarşıdurma yaradan erməni müəllimin İmanla sözləşməsi, birincinin onunla guya haləhval tutan həmin müəllimin əlini geri qaytarması, "siz erməni vandalların əli mənim millətimin qanına bulaşıb" deməsi olmuşdu. Cüdo ilə məşğul olan Bəhramın Həştərxanda keçirilən yarışlarda erməni idmançını məğlub etməsi də ona qarşı hiddətə səbəb olmuşdu.

## "Birgə döyüşəcəyik!"

Tələbəlik illəri arxada qalmış, ali məktəb diplomunu alıb Bakıya qayıdan qardaşlar N saylı hərbi hissədə həqiqi hərbi xidmətə başlamışdılar. Vətən müharibəmiz alovlananda isə Qarabağ uğrunda ölüm-dirim savaşına atıldılar. Elman müəllimin və Hicran xanımın böyüdüb boya-başa çatdırdığı bu gənclərin (ailədə cəmi iki övladın) komandiri bir evdən iki oğulun cəbhəyə yollanmasına etiraz edərək, "Biriniz gedin, biriniz qalın" desə də, qardaşlar razılaşmayıb. Qəti qərarları bu olub: "Birgə döyüşəcəyik!"

...Döyüşdən uğurla çıxan əsgərlərimiz yenicə mövqe tutduqları ərazidə baş-başa verib dincəlirdi. Sevdiyi mahnını zümzümə edən kim, baməzə söhbətləri ilə dostlarını güldürən, xoş ovqat yaradan kim. Kəşfiyyatdan qayıdan silah yoldaşlarının qabaqlarına qatıb gətirdiyi erməni əsirini görən Bəhram üzünü qardaşına tutub "Bu yırtıcının sir-sifətinə bir bax! Gör necə o şərəfsiz erməni müəlliminə oxşayır!" demişdi.

Qarabağın işğal altında olan şəhər, kənd və qəsəbələri erməni faşistlərindən addım-addım, qarış-qarış azad edilir, ordumuzun nəzarəti altına keçirdi. Sözün əsl mənasında, can davası, qan davası gedirdi. Öz müdrik sərkərdəsinin xeyir-duası ilə haqq işimiz uğrunda silaha sarılmış, otuz ildən bəri davam edən bu tarixi ədalətsizliyə artıq dözməyən oğullarımız son damla qanınadək döyüşür, düşmənin başını əzirdi.

## Son döyüş

Oktyabrın 27-də İmangilin taqımına Qırmızı bazar istiqamətində yerləşən strateji yüksəkliyin alınması ilə bağlı döyüş tapşırığı verilmişdi. Məhz bu yüksəkliyi götürməklə Xocavəndin Sos, Cütçü kəndlərini və Qırmızı bazar qəsəbəsini işğaldan azad etmək mümkün olacaqdı. Əməliyyata tabor komandirinin müavini Cəlil Cavadov rəhbərlik edirdi. İman və Bəhramın da daxil olduğu bölük iki qrupa bölünmüşdü. Onlar döyüş yoldaşları ilə birlikdə birinci qrupda birləşmişdi. Həmin qrupu gizir Əsgər Hüseynov öz arxasınca aparırdı. Bir qədər aralıda olan ikinci qrupun döyüşçüləri düşmən mövqelərini atəşə tutur, İmangilin on dörd nəfərdən ibarət qrupuna dəstək verməklə irəliləməsinə imkan yaradırdı. Əsgər Hüseynovun qrupu işğalçı ermənilərlə çox yaxın məsafədə düşmənin qəfil atəşi ilə qarşılaşdı. Döyüşçülərin əksəriyyəti bu məsafəni iti sürətlə keçdi. İman döyüşçü dostlarından bir an içində ayrılaraq arxada qalan əsgərlərə kömək etmək üçün həmin məsafəni gedib-qayıtdı. Həyatını təhlükəyə atdığına görə onu qınayanlara "Ölüm haqdır," - deyirdi. - "Şəhidlik zirvəsinə ucalsam, xoşbəxt olaram".

İman, Bəhram və silahdaşları təpəyə qalxdıqca azğın ermənilər onları güllə yağışına tuturdu. Döyüşçülərimiz mövqelərini yenicə müəyyənləşdirmişdi ki, qarşı tərəfdən mərmilər dolu kimi yağmağa başladı. Pusquya düşmüşdülər. Erməni yaraqlıları gizir Ə.Hüseynovun əsgərlərinə onların mövqe tutduğu təpənin qarşısındakı yüksəklikdən güllə atırdı. İgidlərimiz - İman və Bəhram Məmmədzadələr, Əfqan Məlikov, əsgərlər Elnur Bayramov, "Şəkili" ləqəbli Hüseyn nər kimi döyüşür, yağı yuvasına zərbələr endirirdi. Qüvvələr nisbətinin bərabər olmadığı amansız döyüşün davam etdiyi ilk saatda İman ayağından yaralandı. Ara verməyən yağı gülləsindən qorunmaq üçün ətrafda xırda kol-kosdan savayı heç nə yox idi. Düşmən əsgərləri isə illərdən bəri möhkəmləndirdikləri səngərlərdən atırdı.

Bölüyün təlim-tərbiyə işləri üzrə komandir müavini Ə.Məlikov Bəhramla köməkləşib İmanı yaxınlıqdakı kolun dibinə çəkərək yarasını sarıdı. Silahdaşları onu özünü müdafiə etmək üçün hərəkətsiz qalmağa, ayağa qalxmamağa çağırsa da, İman "Bu şərəfsizlər kimdir ki, qarşılarında diz çökək?!" deyirdi. Sonra snayper onun o biri ayağını da nişan aldı. Hər iki ayağından qan süzülən, buna baxmayaraq toparlanıb əlindəki avtomatla düşmən mövqelərinə atəş açan İmana tuşlanmış güllələrin sayı-hesabı yox idi... Taqəti çatdıqca əlini silahın tətiyindən çəkmirdi. Amma getdikcə işığı azalan gözləri qaralır, heydən düşürdü. Qulaqları uğuldayır, sanki haradasa uzaq bir dünyadan, lap elə uşaqlıq çağlarından çox həzin, kövrək bir nəğmə eşidilirdi. Bu, onu ağuşuna alıb sonsuzluğa aparan, ölməzliyə, şəhadətə yüksəldən əbədiyyət nəğməsi idi...

Bəhram və Əfqan da yaralanmışdı. Yaralı vəziyyətdə düşmənə müqavimət göstərmək çətin idi. Şəhid olmuş İmana doğru çətinliklə sürünən Əfqan bir qədər aralıda düşüb qalmış Bəhramın "Qardaşımın vəziyyəti necədir" sualına nə cavab verəcəyini bilmirdi. İmanın ölüm xəbərini gizlədərək "O, huşunu itirib, hər şey yaxşı olacaq, Bəhram, sən hərəkətsiz qal, tərpənmə" deyə bildirdi. Bununla da o, ölümlə çarpışan silah yoldaşının ağrı-acısını qismən yüngülləşdirmək istəyirdi.

Qan içində çabalayan Bəhramın sövq-təbii çiynini qaldırıb qardaşına sarı boylanması ilə snayperin onu hədəfə alması bir oldu. Yer-göy sanki başına fırlanırdı. Azca sonra özünü ona yetirən Əfqana güclə eşidiləcək xırıltılı səslə bunları deyə bildi: "İnsanı yaşadan, sabaha aparan ümiddir. Ən çətin anlarımı da inamla yaşadım, ümid məni heç vaxt tərk eləmədi. İndi qanlı savaşın içində yalnız qələbə haqqında düşünürəm. İman yaraları sağalan kimi yenə düşmənlə vuruşacaq. Yağıya qan udduranda məni və bütün şəhidləri əvəz edərsiniz! Məğlubiyyət düşmənin, Zəfər bizim olacaq! Çox az qaldı..." deyib gözlərini əbədi yumdu.

Ölümlərin alisidir şəhidlik! Bu döyüş əməliyyatında İmangilin qrupunun on dörd üzvündən on biri şəhid olmuş, şəhadətə yürümüş, canını Vətənə fəda etmişdi.

Ertəsi gün əsgər və zabitlərimiz hücum edib erməni quldurların kök saldığı həmin strateji yüksəkliyi alaraq, Azərbaycan Ordusunun hünərini göstərmişdi. Üçrəngli bayrağımız artıq bu yüksəklikdə də əzəmətlə dalğalanırdı. Şəhidlərimizin qanı yerdə qalmamışdı.

## Kəşfiyyatçının dostu dumandır

Döyüşçüsü olduqları taqımın komandir müavini, gizir Əsgər Hüseynov İmanın və ondan iki yaş kiçik olan Bəhramın cəsarəti, hünəri barədə ağızdolusu danışır. Deyir ki, onların gözündə qorxu yox idi, dəli-dolu idilər. Zahirən daha ciddi və bir qədər ötkəm görünən İman da, daha həlim və ünsiyyətcil Bəhram da çox sadə, xeyirxah ürəyin sahibi idilər. Həqiqi hərbi xidmətləri dövründə də komandirləri olduğumdan onların bacarığı, döyüş qabiliyyəti, insani keyfiyyətləri haqqında müşahidələrim yetərincədir. İman və Bəhram kəşfiyyat bölüyünün əsgərləriydi. Düşmənin döyüş mövqeləri, canlı qüvvəsi, texnikası, silah-sursatı barədə həmişə dəyərli məlumatla geri dönürdülər. Hər ikisi zəkalıydı, idmançı, bədəncə möhkəm, gümrah idi. Rabitədən baş çıxarır, dalğanı dəqiq tutur, istiqamətləri doğru-düzgün müəyyənləşdirirdi. Müharibənin ilk günlərindən mürəkkəb döyüş tapşırıqlarının öhdəsindən gəlir, ən çətin anlarda vəziyyətdən çıxış yolu tapa bilir, dara düşən cəbhədaşlarına köməyə tələsirdilər.

Deyirlər, kəşfiyyatçının dostu dumandır. O kəs yaxşı kəşfiyyatçıdır ki, silahsız və səssiz işləyə bilir. Mühasirədə qaldığımız günlərdə, su, ərzaq qıtlığı yarananda cəsur qardaşlar bu müşkülü də çözmüşdülər. Dumanlı bir gündə gizlin, dar cığırlarla təpəni enib, su mənbəyi tapmış, əsgər yoldaşlarını susuzluqdan qurtarmışdılar. Xeyli məsafə qət edib, aralıda olan ərzaq maşınından döyüşçülərin yemək paylarını gətirib çatdırmağı da bacarmış, bu cəhdləri də uğurlu olmuşdu.

Şəhid qardaşların atası Elman Məmmədov deyir ki, İman və Bəhram haqsızlıq, biganəliklə barışmır, xəbisliyə, ikiüzlülüyə dözmürdülər. Onların tarixi düşmənlərimiz olan erməni faşistlərinə dərin nifrəti, kin-küdurəti də elə bundan qaynaqlanırdı. Sankt-Peterburqda magistr təhsili almaq şansları vardı. Amma hər iki oğlum ordu sıralarında olmağa üstünlük verdi. Aprel döyüşlərindən üzübəri düşmənə qarşı savaşa atılmaq, otuz ildən bəri işğal altında qalan torpaqlarımızı azad etmək istəyirdilər. Anası Hicran xanım da, mən də hər dəfə harada olduqlarını soruşanda "Narahat olmayın, istədiyimiz, arzuladığımız yerdəyik!" cavabını eşidirdik.

Hər iki şəhid qardaş ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülmüşdür.

Xalqımızın şərəfini, heysiyyətini uca tutan yurd sevdalıları Vətənin müdafiəsində idi, torpaqlarımızın bölünməzliyi uğrunda çarpışır, azğın düşmənə zərbələr endirir, öldürür, ölür, şirin canından keçib şəhid olurdu. Ölümü öz ölümsüzlüyü ilə məğlub edən İmanla Bəhram kimi.Təki Vətən sağ olsun!

***Zemfira MƏHƏRRƏMLİ,***
***Əməkdar jurnalist***

## 31 oktyabr – 1 noyabr. ZƏFƏR gündəliyi. 2020-ci il



Oktyabrın 31-i gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutur.

Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edir.

Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar var.

Gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 3 ədəd PDM, 2 ədəd "Smerç" və 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemləri, 12 ədəd müxtəlif tipli topu, 1 ədəd "Osa" ZRK, 1 ədəd radioelektron mübarizə stansiyası, 2 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılır.

Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Saat 06:00-dan etibarən Ermənistan silahlı qüvvələri Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisini artilleriya atəşinə tutur. Bir müddət sonra Ağcabədi rayonunun Qiyaməddinli kəndi atəşə məruz qalır.

❖ ❖ ❖



Düşmən Xocavənd istiqamətində fosfor tərkibli yük gətirməklə gələcək təxribatlarına zəmin yaratmağa çalışır.

Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilir ki, işğal altında olan Xocavənd istiqamətində yerləşən Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 37-ci atıcı diviziyasının 3-cü motoatıcı alayının müdafiə sahəsindəki bölmələrinə xeyli sayda fosfor tərkibli yükün gətirildiyi barədə kəşfiyyat məlumatı daxil olub.

Ehtimal olunur ki, fosfor tərkibli döyüş sursatının qeyd olunan ərazilərə gətirilməsində düşmənin məqsədi, ilk növbədə, onun Azərbaycan Ordusunun bölmələrinə qarşı tətbiq edilməsidir. Digər tərəfdən isə həmin sursatın guya bölmələrimiz tərəfindən əraziyə səpələndiyi barədə dezinformasiya yaymaqdır.

Artıq oktyabrın 30-da Ermənistan tərəfi guya Azərbaycan Ordusunun ağ fosfor tərkibli silah tətbiq etməsi barədə yalan və saxta məlumat yayır və beləliklə də, gələcək təxribatları üçün zəmin yaradır.

Nazirlik bir daha bildirir ki, Azərbaycan Ordusunun silahlanmasında qadağan olunmuş heç bir döyüş sursatı yoxdur.

❖ ❖ ❖



Günün birinci yarısında Azərbaycan Ordusu tərəfindən endirilən zərbələr nəticəsində düşmənin döyüş texnikası və xeyli sayda canlı qüvvəsi məhv edilir.

Günorta saatlarında düşmənin canlı qüvvə ilə dolu hərbi avtomobil texnikasının mövqelərimiz istiqamətində hərəkəti müşahidə edilir. Məlum olur ki, Ermənistanın xüsusi təyinatlı qüvvələrindən ibarət kəşfiyyat-diversiya qrupu təxribat törətmək məqsədilə qoşunlarımızın müdafiə xəttinə yaxınlaşmağa cəhd göstərir.

Düşmənə vurulan birinci atəş zərbəsi ilə avtomobil texnikası sıradan çıxarılır və kəşfiyyat-diversiya qrupu pərən-pərən düşərək qaçmağa başlayır. Həmin qrupun üzvlərinin ərazini tərk etmələri üçün "Kamaz" markalı ikinci avtomobilə minmələri də müşahidə edilir. İçərisi silahlı hərbçilərlə dolu olan bu avtomobil də istiqamətlənmiş dəqiq atəş zərbəsi ilə dərhal məhv edilir.

❖ ❖ ❖

Ermənistan yenə uydurma məlumat yayaraq Azərbaycan Ordusunun bu ölkənin ərazisini atəşə tutmasını iddia edir. Müdafiə Nazirliyinin yaydığı məlumatda qeyd edilir ki, bu, düşmənin növbəti yalanı və təxribatıdır.

Məlumatda qeyd edilir ki, Ermənistan-Azərbaycan dövlət sərhədinin Qubadlı sahəsində rayonun 4-5 km dərinliyində, Azərbaycan ərazisində artilleriya qurğularının atəş nöqtələrini yerləşdirən düşmən Qubadlı rayonunun işğaldan azad olunmuş kəndlərini və Azərbaycan Ordusunun bölmələrini gün ərzində intensiv atəşə tutub. Yalnız sərhədlərimiz çərçivəsində tərəfimizdən düşmənin həmin atəş nöqtələrinə qarşı adekvat tədbirlər görülüb: "Bir daha bildiririk ki, Azərbaycanın Ermənistan ərazisində heç bir hərbi məqsədi yoxdur. Azərbaycan Ordusu dünya birliyi tərəfindən tanınan ölkəmizin sərhədləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa edir".

❖ ❖ ❖

Saat 17:00 radələrində ərazinin havadan müşahidəsi zamanı cəbhənin Xocavənd istiqamətində hərbi avtomobil kortejinin hərəkəti qeydə alınır.

İstiqamətlənmiş və kombinəedilmiş havadan və artilleriyanın dəqiq atəş zərbələri ilə kortejin tərkibində olan bir neçə avtomobil və şəxsi heyət məhv edilir.

❖ ❖ ❖

Hərbi Hava Qüvvələrinin "Su-25" həmlə təyyarəsi düşmən mövqelərini bombardman edir.

Endirilən aviazərbələr nəticəsində düşmənin səngərlərdəki və yeraltı sığınacaqlardakı xeyli sayda canlı qüvvəsi məhv edilir.

❖ ❖ ❖



Noyabrın 1-də Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutur.

Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edir.

Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında xeyli sayda itki var.

Sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 1 ədəd PDM, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 8 ədəd müxtəlif tipli topu, 2 rabitə qülləsi, 5 ədəd avtomobil texnikası məhv edilir və sıradan çıxarılır.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusu bölmələrinin mövqelərini artilleriya, minaatan və atıcı silahlardan atəşə tutur.

Müxtəlif vaxtlarda Ermənistanın Berd, Çəmbərək və Gorus rayonlarından Azərbaycanın Tovuz, Gədəbəy və Qubadlı rayonlarında yerləşən ordu bölmələrimizin mövqeləri düşmən tərəfindən atəşə məruz qalır.

❖ ❖ ❖

Saat 10:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhəri, rayonun Şıxarx qəsəbəsi, Qapanlı, Əskipara, Səhləabad kəndlərini, eləcə də Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndini intensiv artilleriya atəşinə tutur.

❖ ❖ ❖

Artilleriya bölmələrimizin dəqiq zərbələri ilə düşmənin canlı qüvvəsi və iki artilleriya batareyası məhv edilir.

❖ ❖ ❖

Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində bölmələrimizin mövqelərini atəşə tutan düşmənin 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi zərərsizləşdirilir.

❖ ❖ ❖



Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində gedən döyüşdə zərərsizləşdirilən düşmən bölmələrindən hərbi qənimət kimi silah və sursat götürülür.

❖ ❖ ❖

İşğal olunmuş ərazimizdə yerləşən Ermənistan silahlı qüvvələrinin raket-artilleriya silahları anbarı bir neçə gün əvvəl tərəfimizdən məhv edildikdən sonra düşmən bölmələrində ciddi silah-sursat qıtlığı yaranır.

Buna görə də düşmən sərəncamında olan bütün silah-sursatları döyüşlərin ən qaynar getdiyi istiqamətdə istifadə etməyə çalışır.

Axşam saatlarında ərazinin havadan müşahidəsi zamanı hərbi sursatla dolu iki yük maşınının daldalandığı yer müəyyənləşir. İstiqamətlənmiş dəqiq atəş zərbəsi ilə hərbi nəqliyyat vasitələri dərhal məhv edilir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## *Elman RÜSTƏMOV:* "Manata təhdid yoxdur"

**"Azərbaycanda manatın məzənnəsinin dayanıqlığına heç bir təhdid yoxdur".**

AZƏRTAC xəbər verir ki, bu barədə Mərkəzi Bankın sədri Elman Rüstəmov oktyabrın 29-da keçirdiyi mətbuat konfransında deyib.

O bildirib ki, valyuta bazarı sabitdir. Manatın dayanıqlığı artıb və manata mövcud olan təzyiqlər tədricən səngiyir.

## AMB uçot dərəcəsini artırıb

**Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti uçot dərəcəsinin 7 faizə çatdırılması barədə qərar qəbul edib.**

AZƏRTAC xəbər verir ki, bu barədə AMB-nin sədri Elman Rüstəmov oktyabrın 29-da keçirdiyi mətbuat konfransında məlumat verib.

E.Rüstəmov qeyd edib ki, faiz dəhlizinin aşağı həddi 6 faiz, yuxarı həddi isə 8 faiz səviyyəsində saxlanılıb.

## "Azeri Light" 85 dollardan baha satılır

**Azərbaycan neftinin qiyməti ucuzlaşıb.**

AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,11 dollar azalaraq 85,78 dollar təşkil edib.

Xatırladaq ki, Azərbaycan neftinin bir barelinin bu il ərzində maksimum qiyməti oktyabrın 25-də (88,19) qeydə alınmışdı.

## İqtisadi inkişaf sürət götürür




### ÜDM istehsalı 4,8, əhalinin gəlirləri 2 faizdən çox artmışdır

**Dövlət Statistika Komitəsi (DSK) cari ilin 9 ayı üzrə ölkənin ayrı-ayrı sahələrini əhatə edən sosial-iqtisadi göstəriciləri açıqlayıb. Hesabatda bildirilir ki, yanvar-sentyabr aylarında Azərbaycanda 62,9 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 4,8 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri neft-qaz sektorunda 6,2 faiz artmış, neft-qaz sektorunda 1,4 faiz azalmışdır.**

İlin əvvəlindən keçən 9 ay ərzində ÜDM-in 40,1 faizi sənaye, 10,3 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,2 faizi tikinti, 6,9 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 1,1 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə, 18,4 faizi digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 9,1 faizini təşkil etmiş, əhalinin hər nəfərinə 6279 manata əlavə dəyər düşmüşdür.

Hesabat dövründə ölkə üzrə 36,6 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir ki, bu da 2020-ci ilin müvafiq dövrünə nisbətən 4,5 faiz çoxdur. Ümumilikdə bu dövrdə sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 19,6 faiz artmışdır. Sənaye məhsullarının 62,4 faizi mədənçıxarma, 31,8 faizi emal, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə neft hasilatı 0,7 faiz azalmış, əmtəəlik qaz hasilatı 19,3 faiz artmışdır.

Emal sektorunda isə əczaçılıq məhsullarının istehsalı 88,8, tikinti materiallarının istehsalı 72,2, maşın və avadanlıqların quraşdırılması, təmiri işləri 65,4, tütün məmulatlarının istehsalı 56,9, elektrik avadanlıqlarının istehsalı 53,9, toxuculuq sənayesi məhsullarının istehsalı 46,8, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 42, kağız və karton istehsalı 28,6, rezin və plastik kütlə məmulatlarının istehsalı 22,1, neft məhsullarının istehsalı 17,7, hazır metal məmulatlarının istehsalı 16,8, kimya sənayesi məhsullarının istehsalı 16,1, metallurgiya sənayesi məhsullarının istehsalı 15,6, elektron və optik məhsulların istehsalı 13,6, qida məhsullarının istehsalı 9,3, içki istehsalı 3,4, mebel istehsalı 1,9 faiz artmış, ağacın emalı və ağac məmulatlarının istehsalı 10,1, avtomobil qoşqu və yarımqoşquların istehsalı 11,8, geyim istehsalı 13,2, poliqrafiya məhsullarının istehsalı 42,8, digər nəqliyyat vasitələrinin istehsalı 90 faiz azalmışdır.

DSK-nin hesabatına əsasən, 9 ay ərzində əsas kapitala 9 milyard 560,2 milyon manat vəsait yönəldilmişdir. İstifadə olunmuş ümumi vəsaitin 67 faizi məhsul istehsalı və 25,4 faizi xidmət obyektlərinin, 7,6 faizi yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 65,9 faizi daxili sərmayələr olan bu vəsaitlərin 66,8 faizi bilavasitə tikinti-quraşdırma işlərində xərclənmişdir.

Yanvar-sentyabr aylarında ölkə üzrə neft-qaz sektoruna 4 milyard 33,8 milyon manat vəsait yönəldilmişdir. Qeyri neft-qaz sektorunun inkişafına yönəldilmiş 5 milyard 526,4 milyon manat vəsaitin 1 milyard 41,1 milyon manatından (ümumi sərmayənin 10,9 faizindən) qeyri neft-qaz sənayesi sektorunda istifadə olunmuşdur. Yeri gəlmişkən qeyd edək ki, bu dövrdə əsas kapitala 3 milyard 256,6 milyon manat xarici kapital da yatırılmışdır. Həmin vəsaitin 94,7 faizi Birləşmiş Krallıq, ABŞ, Yaponiya, Türkiyə, Norveç, İsveçrə, Malayziya, Rusiya, Fransa, İran və Virgin adaları investorlarına məxsus olmuşdur.

Dövlət Statistika Komitəsi ötən aylar üzrə ölkədə muzdla işləyənlərin orta aylıq əməkhaqqı barədə də məlumat açıqlamışdır. Bildirilir ki, Azərbaycanda cari ilin 8 ayı üzrə muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2020-ci ilin eyni dövrünə nisbətən 2,2 faiz artaraq 725,6 manata çatmışdır. Əhalinin ümumi gəlirlərinə gəldikdə həmin məbləğ cari ilin yanvar-sentyabr aylarında 42,3 milyard manat olmuşdur ki, bu da nominal ifadədə keçən ilin müvafiq dövründəkindən 2 faiz çoxdur.

DSK-nin digər bir məlumatı ölkə üzrə pərakəndə ticarət dövriyyəsi haqqındadır. Hesabata əsasən, 9 ay ərzində pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 2,8 faiz üstələyərək 30 milyard 350,1 milyon manat olmuşdur. Eyni zamanda bu dövrdə əhaliyə 5 milyard 402,7 milyon manatlıq ödənişli xidmətlər göstərilmişdir. Bu isə əvvəlki ilin müvafiq dövrünün göstəricisini 4,6 faiz üstələyir.

Azərbaycanın ötən aylar ərzində xarici ticarət əlaqələrində də müsbət nəticələr qeydə alınmışdır. Hesabata görə, cari ilin 8 ayı ərzində gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla ölkənin xarici ticarət dövriyyəsinin dəyəri 20 milyard 100,1 milyon dollar olmuşdur. Ticarət dövriyyəsinin dəyər ifadəsində 12 milyard 750,6 milyon dollarını ixrac, 7 milyard 349,5 milyon dollarını idxal məhsulları təşkil etmişdir ki, bu da 5 milyard 401,1 milyon dollarlıq müsbət ticarət saldosu deməkdir.

Xarici ticarətdə digər mühüm fakt ixracda qeyri-neft məhsullarının xüsusi çəkisinin artmasıdır. Hesabatda bildirilir ki, cari ilin 8 ayı ərzində Azərbaycandan 1 milyard 584,5 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunmuşdur. Bu isə ötən ilin müvafiq dövrünün analoji göstəricilərindən faktiki qiymətlərlə 37,4, real ifadədə 24,3 faiz çoxdur.

Bir neçə fakt da nəqliyyat, informasiya və rabitə barədə: hesabata görə, cari ilin yanvar-sentyabr aylarında ölkənin informasiya və rabitə müəssisələri tərəfindən ümumilikdə 1 milyard 699,3 milyon manatlıq müxtəlif xidmətlər göstərilmiş və həmin xidmətlərin 76 faizindən əhali istifadə etmişdir. Hesabat dövründə bu xidmətlərin həcmi 5,7 faiz artmışdır. Əldə edilmiş gəlirlərin 81 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Nəqliyyat sektorunda isə göstəricilər belədir: 9 ay ərzində ölkə üzrə 140,3 milyon ton yük, 838,9 milyon nəfər sərnişin daşınmışdır. Yük dövriyyəsi 0,2, sərnişin daşınması 10 faiz azalmışdır.

Sonda istehlak qiymətləri barədə: DSK bildirir ki, ilin əvvəlindən ötən 9 ay ərzində 2020-ci ilin eyni dövrünə nisbətən ümumilikdə qiymətlər 5,2, o cümlədən ərzaq məhsulları, içki və tütün məmulatları 6, qeyri-ərzaq malları 4,4, əhaliyə göstərilən ödənişli qiymətlər 4,6 faiz bahalaşmışdır.

***"Azərbaycan"***

## *Payızlıq əkinlər:* Ölkə üzrə 826,3 min hektarda şum aparılıb

**Payızlıq əkinlərlə əlaqədar bu günədək Azərbaycanda 826287 hektar sahədə şum aparılıb. Bu, proqnozlaşdırılan əkin sahəsinin 81,3 faizini təşkil edir.**



Oktyabrın 28-dək 200818 hektar sahədə səpin həyata keçirilib, o cümlədən 84961 hektar sahədə buğda səpini, 115857 hektar sahədə arpa səpini aparılıb. Səpin zamanı 14816.2 ton sertifikatlaşdırılmış buğda, 13007.4 ton sertifikatlaşdırılmış arpa toxumundan istifadə olunub.

Füzuli, İmişli, Oğuz, Qubadlı, Salyan, Sabirabad, Xocalı, Yevlax və Zəngilan rayonlarında şum proqnozlaşdırılan əkin sahəsinə nisbətən 100 faiz yerinə yetirilib. Ağcabədi rayonunda şum proqnozlaşdırılan əkin sahəsinə nisbətən 98.2 faiz, Ağdaş rayonunda 93.1 faiz, Ağstafa rayonunda 95.2 faiz, Quba rayonunda 98.1 faiz, Saatlı rayonunda 95 faiz, Qəbələ rayonunda 97 faiz yerinə yetirilib.

## İraqdan ölkəmizə repatriasiya olunmuş uşaqlar reabilitasiya və reinteqrasiya proqramına cəlb ediliblər

İraqdan ölkəmizə repatriasiya olunmuş 38 uşaqdan 17-si Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin, 21 nəfəri Səhiyyə Nazirliyinin müəssisələrinə yerləşdirilib.

Bundan əvvəl tərkibində agentliyin nümayəndəsi də olan İşçi Qrupu Bağdad şəhərinə (İraq) ezam edilib. Orada cəzaçəkmə müəssisələri və uşaq evlərində saxlanılan, Azərbaycan vətəndaşları olan həmin uşaqların ilkin tibbi və psixoloji müayinəsi həyata keçirilib, onlara zəruri yardım göstərilib.

Ölkəmizə gətirildikdən sonra uşaqların hər birinə psixoloq, sosial işçi təyin olunub. Onlarla bağlı fərdi plan əsasında, həmçinin aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq şəraitində reabilitasiya və reinteqrasiya proqramının icrasına başlanıb.

Sosial tərəfdaşların dəstəyi ilə qış paltarları ilə təmin edildikdən sonra uşaqların ailələrinə, yaxın qohumlarına verilməsinə başlanacaq. Sonrakı mərhələdə də onlara sosial-psixoloji dəstək davam edəcək, yerləşdikləri ailələrlə psixososial reabilitasiya işi aparılacaq.

Sosial Xidmətlər Agentliyi Azərbaycan hökuməti tərəfindən bu vaxtadək İraqdan və Suriyadan repatriasiya olunmuş digər şəxslərlə, onların yaşadıqları ailələrlə bağlı onların ehtiyaclarına uyğun sosial-psixoloji reabilitasiya proqramı tərtib edilməklə sosial işlər aparıb. Həmin şəxslər psixoloji konsultasiyalara, maarifləndirici tədbirlərə, asudə vaxtlarının mənalı keçmələri üçün müxtəlif dərnəklərə cəlb ediliblər. Hazırda onlarla sosial işlər davam etdirilir.

### 1 Noyabr Kənd Təsərrüfatı İşçiləri Günüdür

# Göygöllü fermerlər ili uğurla başa vuracaqlarına əmindirlər

**Göygöl rayonu təkcə füsunkar təbiəti ilə deyil, işgüzar insanları ilə də seçilir. Son illər istər kənd təsərrüfatında, istərsə də sənayedə qazanılan uğurlar rayonun imkanlarını xeyli artırmışdır. Rayon ərazisinə daxil olanda hiss olunur ki, Göygöl ölkənin sürətlə inkişaf edən bölgələrindən biridir.**







Amma göygöllülər qazandıqları nailiyyətlərdən qətiyyən arxayınlaşmır, sabaha daha ümidlə baxaraq çalışır, rayon iqtisadiyyatı ilə yanaşı, özlərinin həyat səviyyəsini də yüksəldirlər. Əvvəlki illərdə olduğu kimi, 2021-ci ili də uğurla başa vurmağa hazırlaşan göygöllülər bu günlər daha əzmlə işləyirlər. Onlar yetişdirdikləri məhsulu sonadək yığmaq və gələn il bol məhsula zəmin yaratmaq üçün yorulmaq bilmədən çalışırlar.

2021-ci il rayonun aqrar sektoru üçün daha uğurlu olmuşdur. Xüsusilə taxılçılıqda yüksək göstəricilər əldə edilmişdir. Belə ki, rayon üzrə bu il 4361 hektarda buğda, 2763,5 hektarda arpa, 25,5 hektarda qarğıdalı əkilmişdir ki, bunlar da keçən ildəkindən çoxdur. Yüksək aqrotexniki qulluq nəticəsində 13847,6 ton buğda, 8269,5 ton arpa, 51 ton qarğıdalı yığılmışdır. Məhsuldarlıq da xeyli yüksəlmişdir. Dəmyə şəraitində əkilən buğdanın hər hektarından nəzərdə tutulduğundan 7,64, arpanın - 2,42, qarğıdalının isə - 1,51 sentner çox məhsul götürülmüşdür. Hətta rayonda hər hektardan 40 sentnerədək məhsul götürən fermerlər də olmuşdur. Onlardan Altay Ələkbərovu, Aydın Cəfərovu, Fuad Zalovu göstərmək olar.

Altay Ələkbərov Göygöl rayonunun Pənahlılar kəndindəndir. Rəhbərlik etdiyi təsərrüfat ona atası İdris kişidən qalıb. Atası dünyasını dəyişdikdən sonra Altay onun işini davam etdirir. Artıq 15 ildir ki, taxılçılıqla məşğuldur. Bu müddət ərzində taxılçılıqda zəngin təcrübə toplayıb. Əkin sahələrini genişləndirərək, 80 hektardan 300 hektara çatdırıb. Dövlətin yaratdığı imkanlardan istifadə edərək lizinq yolu ilə təsərrüfatına 2 traktor, kombayn, taxılsəpən, yerşumlayan kotan alıb. Bu il hər hektardan 32 sentner taxıl götürən Altay hazırda gələn ilin məhsulunun bünövrəsini qoyur. Hər gün səhər tezdən axşama kimi onun əkin sahələrindən texnika səsi gəlir.

Rayonda payızlıq, yazlıq dənlilər və dənli paxlalılar istehsalında da yüksək göstəricilər əldə edilmişdir. 7150 hektardan 22168 ton məhsul yığılmışdır ki, bu da keçənilki göstəricidən 8379,6 ton çoxdur. Hər hektarın məhsuldarlığı isə 81,7 sentnerə çatmışdır.

Göygöl fermerləri kartof və tərəvəz istehsalında da fərqlənmişlər. 370 hektarda dən üçün əkilmiş günəbaxan sahəsindən 468,2, 471 hektar kartof sahəsindən isə 4521 ton məhsul götürülmüşdür.

Üzümçülük göygöllülərin ata-baba peşəsidir. Sovetlər birliyi dağılanadək rayonda 250 min ton üzüm istehsal edilirdi. Sonralar məlum hadisələr nəticəsində yaranan ögey münasibət bu sahənin də geriləməsinə səbəb oldu. Nəticədə üzüm bağları məhv edilərək əhaliyə pay torpağı kimi paylandı. Ancaq son illər dövlət başçısının təşəbbüsü ilə bu sahənin də tənəzzülünə son qoyulmuşdur. Nəticədə rayonda üzümçülüyə maraq artmışdır. Təkcə son illər rayonda 736,7 hektar yeni üzüm bağları salınmışdır. Həmin bağların 706,2 hektarında əsasən Fransadan gətirilmiş texniki, 38,5 hektarında süfrə üzümü yetişdirilir. Bu il sahələrdən 127,5 ton süfrə üzümü yığılaraq satışa verilmişdir. 3658 ton texniki üzüm sortları isə emal müəssisələrinə göndərilmişdir.

Göygöl rayonu heyvandarlıq məhsulları istehsalında da uğurlu göstəricilərə nail olmuşdur. Hazırda rayonda 20,5 min başdan çox qaramal, 125 min başa yaxın davar var ki, bu da əvvəlki ildəkindən çoxdur. Ət və süd istehsalında da irəliləyiş nəzərə çarpır. Təkcə süd istehsalı 9 ayda 17,8 ton artmışdır.

Göygöl rayonunda uzun illər əkinçilik sahəsində çalışmış və bu sahədə zəngin təcrübə toplamış onlarca fermer var. Onlardan biri də Fuad Zalovdur. Hər il yüksək göstəricilər qazanan fermer cari il bu göstəriciləri xeyli arxada qoymuşdur. 198 hektarda taxıl əkən təsərrüfat sahibi hər hektardan 35 sentner məhsul götürmüşdür ki, bu da keçən mövsümdəkindən 5 sentner çoxdur. Fermer Abuzər Mahmudov da builki qazancından razıdır. O, 180 hektar sahənin hər hektarından 40 sentnerə yaxın taxıl götürmüşdür.

Rayonda kənd təsərrüfatının digər sahələrində çalışan təsərrüfat sahibləri də bu il yüksək göstəricilərə nail olmuşlar. Məsələn, "Yastıbulaq" kəndli fermer təsərrüfatı əsasən moruqçuluqla məşğuldur. Təsərrüfatın nəzdində 20 hektara yaxın moruq sahəsi var. Mövsümdə burada 70 nəfərə yaxın adam işlə təmin olunur.

Ümumiyyətlə, ötən 9 ayın göstəricilərinə nəzər salanda görmək olar ki, Göygöl rayonu 2021-ci ili də uğurlu göstəricilərlə yola salacaq. Rayonda məhsul yığımı bəzi sahələrdə hələ davam edir. İnsanlar alın təri ilə yetişdirdikləri məhsullarını axıradək yığmaq üçün işin sürətini bir an belə azaltmırlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Mədəniyyətin dayanıqlı inkişafda rolu və texnoloji investisiyalar mövzularında müzakirələr təşkil olunub

İqtisadiyyat və Mədəniyyət nazirliklərinin dəstəyi, İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun (ICYF) təşkilatçılığı ilə keçirilən Azərbaycan İnvestisiya və Mədəniyyət Sammiti öz işini davam etdirir.

Sammit çərçivəsində "Regionun əsas sosial və iqtisadi çağırışları: Nizami Gəncəvi üzrə baxış", "İnvestisiya qərarlarında mədəni ölçü", "Startap layihələrinə investisiya qoyuluşu" və "Davamlı inkişaf məqsədlərinə nail olunması üçün texnoloji investisiyaların rolu" mövzularında panel müzakirələr təşkil olunub.

Məlum olduğu kimi, 2021-ci il ölkəmizdə "Nizami Gəncəvi ili" elan edilib. Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyi ilə bağlı keçirilən sammit çərçivəsində xüsusi panel təşkil olunub. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə birgə hibrid formatda keçirilmiş "Regionun əsas sosial və iqtisadi çağırışları: Nizami Gəncəvi üzrə baxış" mövzusunda paneldə Nizami yaradıcılığının dünya ədəbiyyatına və mədəniyyətinə verdiyi töhfə, iqtisadi, ticari və mədəni münasibətlərin Nizaminin əsərlərində təzahürü, şairin fikirlərinin müasir bazar iqtisadiyyatı dövrü ilə səsləşməsi, investisiyanın cəlb edilməsinə mədəni əlaqələrin təsiri haqqında məlumat verilib. Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, Kəşmir Universitetinin professorları Nasim Ahmad Şah və Qulam Nəbi Xaki, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (IRCICA) baş katibi Mahmut Erol Kılıç mövzu ilə bağlı fikirlərini bölüşüblər.

"İnvestisiya qərarlarında mədəni ölçü" panelində dünyada cərəyan edən müxtəlif proseslər, rəqəmsallaşma və 4-cü Sənaye İqilabı fonunda mədəniyyətin üzləşdiyi çağırışlar, texnoloji inqilablar əsrində mədəniyyətə yeni baxış və dayanıqlı inkişafda gənclərin rolu, mədəni dəyərlərin qorunması, yaradıcı gənclərin dəstəklənməsi istiqamətlərində fikir mübadiləsi aparılıb. Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, Azərbaycanın Beynəlxalq İnkişafa Yardım Agentliyinin direktoru Elməddin Mehdiyev, Rusiya Federasiyasının Tatarıstan Respublikasının İnvestisiyaların İnkişafı Agentliyinin layihə meneceri Alina Ravzutdinova və sammitin təşkilinə dəstək göstərən "Türk Hava Yolları"nın İnsan resursları üzrə baş direktoru Abdulkerim Çay mövzuya dair çıxış ediblər.

"Startap layihələrinə investisiya qoyuluşu" mövzusunda paneldə startapların maliyyələşdirilməsi, bank sektorunun inkubasiya mərkəzləri ilə əməkdaşlığı, iqtisadiyyatın hərəkətverici qüvvəsi olan mikro, kiçik və orta sahibkarlığın kreditləşdirilməsi, bu sahədə bankların təcrübəsi barədə məlumat verilib. Mövzu ilə bağlı "Paşa Bank", Azərbaycan Beynəlxalq Bankı, sammitə dəstək göstərən "Kapital Bank", eləcə də "Alkan Consulting", Türkiyənin "Halkbank" və "Ziraat Katılım Bankı"nın nümayəndələri fikirlərini bölüşüblər.

"Davamlı inkişaf məqsədlərinə nail olunması üçün texnoloji investisiyaların rolu" panelində isə "bp Azerbaijan" şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli, BMT-nin İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin akseleratorunun rəhbəri Nərgiz Quliyeva, Türkiyə-Azərbaycan İşgüzar Şurasının (DEİK) sədri Selçuk Akat, Azərbaycan-Türkiyə İş Adamları Birliyinin İdarə Heyətinin sədri Cemal Yangın, tədbirə onlayn qoşulan Malaziyanın "Perdana Dialogue" Fondunun baş icraçı direktoru Rafi Yusuf texnoloji investisiyaların önəmi, ətraf mühitə və iqlim dəyişikliklərinə təsiri, BTM-nin Dayanıqlı İnkişaf Məqsədləri, insan kapitalı, innovativ inkişaf, müasir texnoloji vasitələrdən istifadə, kiber təhlükəsizlik kimi istiqamətlərdə çıxış edib, iştirakçıların suallarını cavablandırıblar.

## Arıçılıq məhsullarının sərgi-satış yarmarkasında ən çox cökə balı satışa çıxarılıb

**Bakıda davam edən arıçılıq məhsullarının 21-ci sərgi-satış yarmarkasında arıçılar tərəfindən ən çox cökə balı satışa çıxarılıb. Azərbaycanın bütün iqtisadi bölgələrini təmsil edən 250 arıçı tərəfindən satışa ümumilikdə 39081 kiloqram cökə balı gətirilib.**

Cökə balı yarmarka dövründə satışa təqdim olunacaq arıçılıq məhsullarının 1/3 hissəsini təşkil edir.

Bundan başqa, arıçı fermerlər satışa 19609 kiloqram çiçək balı, 13167 kiloqram qaratikan balı, 7775 kiloqram may balı, 5341 kiloqram dağ balı, 5008 kiloqram biyan balı, 4229 kiloqram meşə balı çıxarıblar. Yarmarkada çəmən balı, dağ-çəmən balı, şabalıd balı, yonca balı və digər bal növləri də satılır.

Ümumilikdə, yarmarkaya 120 tona yaxın arıçılıq məhsulunun çıxarılması nəzərdə tutulur. Bu məhsullar arasında bal ilə yanaşı, mum, propolis, çiçək tozu, güləm, podmor, propolis cövhəri, arı südü, arıçılıq məhsullarından hazırlanan kosmetik vasitələr və s. var.

Xatırladaq ki, arıçılıq məhsullarının 21-ci sərgi-satış yarmarkası noyabrın 7-dək davam edəcək.

Dünya olduğu kimi

# İnsanları aclıqdan qurtaran bitki

**Müasir botaniklər kartofun vətəninin Cənubi Amerika olduğunu deyirlər. Burada bitkinin yabanı halda bitən növlərinə indiyədək rast gəlmək olur. And dağlarında yabanı növ kimi ortaya çıxan kartof sonradan Kolumbiya və Venesuelaya, oradan da Çili və Argentinanın şimalına qədər gəlib çıxıb.**



Kartofun mədəniləşdirilməsi prosesi isə təxminən 7-9 min il əvvəl müasir Boliviyanın ərazisində başlayıb. Hindular kartofu təkcə qidada istifadə etmirdilər. Onlar canlı varlıq kimi qəbul etdikləri kartofa həm də itaət göstərirdilər.

Avropada kartof XVI əsrin birinci yarısında peyda olub. O, əvvəlcə dekorativ, üstəlik zəhərli bitki kimi qəbul edilib. Avropaya (İspaniya) kartofun ilk dəfə 1551-ci ildə Perudan geri qayıdan səyahətçi, bioloq Syes de Leon tərəfindən gətirildiyi bildirilir. Avropa onun sayəsində kartof bitkisinin mövcudluğu haqqında öyrənib. Bu bitki haqqında ilk sporadik məlumatlar, onun qida üçün istifadə edilməsi barədə ilk informasiyalar da İspaniyaya aiddir. Səyahətçi 1553-cü ildə Sevilya şəhərində nəşr edilmiş "Perunun xronikası" əsərində məlumat verir ki, kartofa Kitoda (Ekvador), Pastoda (Kolumbiya) rast gəlib. Pedro Syes de Leon kartofun ilk təsvirini, düzgün hazırlanma və saxlanma üsulunu açıqlayıb və bildirib ki, hinduların əsas ərzaq məhsullarından hesab edilən kartof qaynadıldıqdan sonra qaynamış şabalıdlar kimi yumşaq olur, çəyirdəksizdir və torpağın altında yaranır.

Kartof İspaniyadan sonra Belçikada, Almaniyada, Niderlandda, Fransada, Böyük Britaniyada və digər Avropa ölkələrində geniş yayılıb.

İrlandiyada kartof XVI əsrin sonunda peyda olub. O, tez bir zamanda şöhrət qazanıb və XVIII əsrin sonunda irland kəndlilərinin rasionunda əsas ərzaq kimi yerini tutub.

XVII əsrin sonunda isə kartof Rusiyaya gətirilib. Rusiyada kartofun ilk dəfə peyda olması I Pyotrun adı ilə bağlıdır. Lakin II Yekaterinanın hakimiyyəti dövründə rusların xarici ölkədən gətirilmiş bu məhsulla kütləvi tanışlığı başlayıb. 1765-ci ildə Almaniyadan Moskvaya 57 çəllək kartof gətiriblər. Bu bitki Moskvadan Rusiyanın bütün bölgələrinə yayılıb.

"İncil"də kartofdan bəhs edilmədiyi üçün xristianlar ilk dövrlərdə onu qida kimi qəbul etmək istəməyiblər.

Kartofun yüksək dad və qida keyfiyyətlərinə malik olmasını fransız aqronomu Antuan Oqyüst Parmantye (1737-1813) tam olaraq sübuta yetirib. Onun açıqlamalarından sonra kartof Fransanın, sonra isə digər ölkələrin əyalətlərinə daxil olmağa başlayıb. Hələ Parmantyenin sağlığında kartof Fransanın aclıq dövründən çıxmasına və sinqa xəstəliyindən xilas olmasına imkan verib. Parmantyenin şərəfinə bir neçə yemək adlandırılıb ki, onların da əsas inqridiyenti kartofdur.

Kartofun insanların gündəlik qida rasionuna daxil edilməsi ölkələrdə əhalinin artımına güclü təsir göstərib. Yüksək qidalı kartof "səyahət" etdiyi hər yerdə, xüsusilə Avropada, ABŞ-da və Britaniyada əhalinin artımında böyük sıçrayışa səbəb olub.

Hesablamalara görə, 1700-cü ildən sonra kartofun istehsalında baş verən irəliləyiş dünya əhalisinin təxminən 22 faiz artmasına səbəb olub. Yüksək qidalı kartof ölkələrdə sinqa, vərəm, qızılca və dizenteriya kimi xəstəliklərin təsirini də azaltmağa kömək edib.

İddia edilir ki, Cənubi Amerikada yaşayan inklər üçün vaxt ölçüsü kartofun qaynamasına sərf edilən zaman olub ki, bu da təxminən bir saata bərabər idi. Peruda deyirdilər: "....kartof yeməyinin hazırlanmasına sərf olunan müddət qədər zaman keçdi".

Alimlər bu bitkini hətta kosmosda da sınaqdan keçiriblər. Kartof kosmosda yetişdirilən ilk məhsuldur. Amerika Aviasiya və Kosmos Dairəsi NASA ilə Viskonsin Universitetinin birgə çalışması zamanı 1995-ci ildə kosmosda kartof yetişdirmə sınağı uğurla nəticələnib.

## Ən böyük kartof

**Türkiyənin Hatay əyalətində yaşayan təqaüdçü Mithat Fatmaoğullar 2014-cü ildə bağında dünyanın ən böyük kartofunu yetişdirdiyini iddia edib. Onun əkdiyi kartoflardan birinin çəkisi 22, digərinin çəkisi isə 8,5 kiloqram olub. Mithat həyat yoldaşı ilə birgə məhsulu yığmaq üçün torpağı qazdığı zaman normadan qat-qat böyük ölçüdə - nəhəng bir kartofla qarşılaşdığını söyləyib.**



İngiltərədə həvəskar bağban olan Peter Glazebrook isə 2010-cu ildə yetişdirdiyi böyük kartofu Ginnesin Rekordlar Kitabına daxil etdirə bilib. Çəkisi 4,99 kq olan bu məhsulun həmin zaman dünyanın ən ağır kartofu olduğu təsdiqlənib. Onun daha əvvəl yetişdirdiyi kartofun çəkisi 3,8 kq olub. İstehsalçı uğurunun səbəbini məhsula çox diqqət və qayğı göstərməsi ilə izah edib. İstedadlı bağban bunu mükafat qazanmaqdan ötrü etdiyini də gizlətməyib. Glazebrook tərəvəzlərin yetişdirilməsi üzrə bir çox dünya rekorduna sahibdir.

# Kəndlilərin kəşf etdiyi kartof qızartması

**"Fransız qızartması" kimi tanınan qida əslində Belçikada kəşf edilib. Tarixçilər də kartof qızartmasının mənşəyinin Belçika ilə əlaqəli olduğunu iddia edirlər. 1600-cü illərin sonlarında Belçikada yaşayan kasıb kəndlilər tez-tez çayda tutduqları kiçik qızardılmış balıqları yeyərdilər.**



Çayın donduğu qış aylarında balıq tutmaq qeyri-mümkün olanda kəndlilər başqa maraqlı qida mənbələri axtarmağa başlayıblar. Kəndlilər balığı kartofla əvəzləyirlər. Onlar balığı qızartdıqları kimi, kartofu da doğrayıb qızartmağa başlayırlar. Beləliklə də, qızardılmış kartof insanların sevdiyi yeməklərin sırasına daxil edilir.

Tarixçilərin ABŞ-da aşkarladığı əlyazmalardan birində fransız aşpazın yazdığı resept üzə çıxır. Həmin resept 1850-ci illərdə artıq o qədər populyarlıq qazanır ki, onu "qızardılmış fransız kartofu" kimi təqdim edirlər. Bu resept hətta bir neçə Amerika yemək kitabında əsas yeri tutur.

Bu gün Belçika həm də dünyanın yeganə "Qızardılmış fransız kartofu" muzeyinə evsahibliyi edir. Dünyanın bəzi ölkələrində isə kartof muzeyi var. Avstriya, Kanada, Fransa, Almaniya, İtaliya, ABŞ və s. dövlətlər kartof muzeyi olan ölkələr sırasındadır.

Hər il 13 iyul tarixində ABŞ-da ""Qızardılmış fransız kartofu" günü qeyd olunur.

# Azərbaycanda kartofu ilk dəfə malakanlar əkiblər

**Azərbaycanda kartofun becərilmə tarixi Rusiyadan malakanların ölkəmizə köçürülməsi ilə başlayıb.**

1820-ci ildən başlayaraq malakanlar Cənubi Qafqaza, Krıma, 1870-ci illərdə isə Sibirə və Qars vilayətlərinə köçürülüblər. Gədəbəy rayonunun Novosaratovka kəndinə sürgün edilmiş 12 malakan ailə burada əsasən kartofçuluqla məşğul olub. Azərbaycanda kartofun becərilmə tarixi Gədəbəyin Novosaratovka kəndindən başlayır. Sonralar bu bitkinin əkilmə təcrübəsi Azərbaycanın bir çox dağlıq və dağətəyi rayonlarına yayılıb. Hazırda kartof Tovuzda, Ağstafada, Masallıda, Cəlilabadda və digər bölgələrdə becərilir.

# Kartof çipsinin yaradılması



**Bu gün çoxlarının, xüsusilə uşaqların sevimli qidası olan kartof çipsinin ilk dəfə ABŞ-da yaradıldığı bildirilir.**

Məlumatlara görə, 1853-cü ildə gəmiçilik üzrə fəaliyyət göstərən sahibkar Cornelius Vanderbilt "Moon's Lake House"da nahar edərkən sifariş etdiyi kartof qızartmasını bəyənmir və daha incə dilimlənmiş kartofun hazırlanmasını xahiş edir. Bundan əsəbləşən aşpaz George Crum kartofları mümkün qədər incə doğrayaraq qızardır və beləliklə, kartof çipsi meydana gəlir. Çipsin ilk müştərisi Cornelius Vanderbilt olur. Ancaq 1914-cü ildə Amerikanın məşhur aşpazı olan Crumun ölümü ilə bağlı hazırlanan nekroloqda onun kartof çipsini icad etdiyi qeyd edilmir.

Maraqlıdır ki, Crumun ölməsindən üç il sonra 103 yaşlı Catherine Adkins Vicksin nekroloqunda onun "kartof çipsini yaradan aşpaz" olduğu qeyd edilir. Çipsini ixtira etdiyini iddia edən yalnız Crum və Vicks deyildi. Hiram Thomasın 1907-ci ildə dərc edilmiş nekroloqunda o, "Saratoqa çipslərinin ixtiraçısı" kimi qeyd edilir. Tomas görkəmli bir qara hotelçi idi və Crum və Vicksin işlədiyi restoranın yerləşdiyi "Moon's Lake House"u idarə edirdi. Bütün variantlardan bu qənaətə gəlinir ki, çips ABŞ-da ixtira edilib.

## Dünyanın ən bahalı kartofu

**Dünyanın ən bahalı kartof yeməyi ABŞ-ın Nyu York şəhərindəki restoranda təqdim edilib. Restoranın təqdim etdiyi kartof dünyanın ən bahalı kartofu olaraq, Ginnesin Rekordlar Kitabına düşüb. Üzərinə yeməli qızıl tozu səpilən qızardılmış kartof boşqabı 200 dollara satılıb.**

Kartofun bahalı olmasına səbəb yalnız onun üzərinə səpilən qızıllar olmayıb. Kartofun bişirilməsi üçün keçilən mərhələlər də onun qiymətinin bahalaşmasına gətirib çıxarıb. Bu yeməyin hazırlanması üçün sirkə ilə ağardılmış kartoflar daha sonra iki dəfə təmiz qaz yağında qızardılıb. Daha sonra truffle yağı və truffle duzu ilə ətirlənib.

# Kartof qıtlığı İrlandiyanın tarixini dəyişdi

İrlandiyada 1845-ci ildə başlayıb, 1852-ci ildə bitən "Böyük Qıtlıq" dövrü həm də "Kartof Qıtlığı" dövrü kimi tanınıb. Bu dövr təxminən 1 000 000 insanın ölümü, xəstəliyi və mühacirəti ilə nəticələnib. Aclıq insanların əsas qidası olan kartofa "phytophthora infestans" göbələyinin yoluxmasından qaynaqlanıb. Bu göbələk 1845-ci ildə əkilən kartofun 40 faizini, sonrakı il isə hamısını məhv edib. Nəticədə xalq yeddi il ac qalıb. Yeddi illik aclıq sona çatanda adanın əhalisi 20-25 faiz azalıb.



"Kartof qıtlığı" İrlandiya tarixində dönüş nöqtəsi olub. Adanın demoqrafik, siyasi və mədəni mənzərəsi dəyişib. İrland dilinin istifadəsi azalıb və əksəriyyət ingilis dilində danışmağa başlayıb və ölkə iki qrupa bölünüb. Bu dəyişiklik İngiltərəyə meyil edən birlikçilərin və müstəqillik tərəfdarları olan millətçilərin yaranması ilə nəticələnib. "Kartof qıtlığı" nəticəsində İrlandiyada millətçilik inkişaf edib, katolik əhali Protestant kral ailəsinə nifrət etməyə başlayıb. Bütün bunlar XX əsrdə İrlandiyanın müstəqilliyinə gedən yolun mərhələləri olub. Müasir tarixçilər İrlandiya tarixini aclıqdan əvvəlki və aclıqdan sonrakı dövrlərə bölürlər.

***İlhamə İSABALAYEVA, "Azərbaycan"***

## Ən çox kartof yeyənlər



Dünyada hər gün 1 milyarddan çox insan kartof yeyir. Bu sahə üzrə əsas lider Çindir. Dünya üzrə kartof istehsalının 30 faizə yaxını bu dövlətin payına düşür. Çin ildə 90 321 442 ton kartof istehsalı ilə dünyanın ən birinci, Hindistan 48 529 000 ton istehsalı ilə ikinci, Ukrayna 22 503 970 ton istehsalı ilə üçüncü böyük ölkəsidir. Bu ölkələr dünya üzrə kartof istehsalının yarısını həyata keçirir.

Kartofun ən çox istehlak edildiyi ölkələr Belarus, Rusiya, Ukraynadır. Çin istehsal sahəsində lider olsa da, adambaşına düşən kartof istehlakına görə ən aşağı yerlərdən birini tutur.

Sağlıq olsun

# "Yeralması"nın qüdrəti

**Dünyada 2 mindən çox növü yetişdirilən və mətbəxlərin vazkeçilməz ləzzətli təamı olan kartof sağlamlığa inanılmaz faydası ilə də insanların seçimi arasında ilk yerləri tutur. Kartofun tərkibində C, B qrupu, PP, E vitaminləri, karotin, fol turşusu, nişasta, pektin maddələri, sellüloz və həmçinin vacib mikroelementlər - maqnezium, fosfor, kalsium, dəmir var. Kartof kaliumun miqdarına görə tərəvəzlərin arasında lider sayılır.**

Kartofda antioksidantlar kimi fəaliyyət göstərən flavonoidlər, karotenoidlər və fenolik turşu kimi birləşmələr xroniki xəstəliklərin - ürək xəstəliyinin, diabetin, xərçəngin riskini artıran sərbəst radikalları zərərsizləşdirir.

Bu şəfalı tərəvəz sözün əsl mənasında ürəyin dostudur. Tərkibində ürək sağlamlığı üçün təhlükə yarada biləcək yağ növü olan xolesterin yoxdur. İçərisindəki lif, vitamin C, B6 və antosiyanin sayəsində ürək sağlamlığını dəstəkləyir. Həmçinin tərkibindəki kalium, kalsium və maqnezium qan damarlarını genişləndirməyə və qan təzyiqini aşağı salmağa kömək edir.



### *Xərçəngi məhv edir*

Kartofda davamlı nişasta kimi tanınan xüsusi bir nişasta növü var. Bu nişasta nazik bağırsaqda həzm olunmur, əksinə, yoğun bağırsağa çatır və bağırsaqlardakı faydalı bakteriyalar üçün qida mənbəyi olur. Həmin nişasta bakteriyalar tərəfindən qısa zəncirli yağ turşularından "butirat"a çevrilir. Tədqiqatlar göstərir ki, "butirat" yoğun bağırsaqda iltihabı azaldır, onun müqavimətini artırır və kolorektal xərçəng riskini azaldır. Həmçinin "butirat" Kron xəstəliyi, xoralı kolit və divertikulit kimi iltihablı bağırsaq xəstəlikləri olanların əsl dərmanıdır.

Qələviləşdirici və iltihab əleyhinə möcüzəvi təsiri olan kartof mədədə turşu əmələ gəlməsini azaldaraq mədə və onikibarmaq bağırsaq xoralarına sakitləşdirici təsir göstərir. Eyni zamanda artrit ilə əlaqəli iltihabı aradan qaldırır.

Tibbi araşdırmalar, kartofun tərkibindəki davamlı nişastanın qan şəkərini idarə etməkdə və insulin müqavimətini azaltmaqda xüsusilə təsirli olduğunu müəyyən edib.

Davamlı nişasta orqanizmdə yaxşı əhval və yuxu üçün vacib olan hormonların (serotonin, melatonin, noradrenalin) ifrazını stimullaşdırır.

Bundan əlavə, kartofun yüksək lif tərkibi bağırsaq hərəkətlərini tənzimləyir, ishalın tez sağalmasına kömək edir və ishal zamanı itirilən kaliumun bərpasına kömək edir.

Təbii olaraq qlütensiz olan kartof bu xüsusiyyəti səbəbindən çölyak xəstəliyi olan insanlar üçün son dərəcə uyğun bir qidadır.

Beynin sağlamlığını qoruyan B6 vitamini ilə zəngin kartof onun inkişafına güclü təsir edir.

Bu tərəvəz hava çirklənməsi, radiasiya kimi kimyəvi tullantılara qarşı qanı zəhərlərdən təmizləyir və hüceyrələri yeniləyir.

Doyurucu qida olan kartof xolesistokinin (CCK) kimi toxluq hormonlarının səviyyəsini artırır. Tərəvəzin qabığındakı yüksək miqdarda lif toxluğu artırır.

Kartof allergik reaksiyalara səbəb olmur və buna görə kiçik yaşlı uşaqların, allergiyaya meyilli insanların qidalanmasında geniş istifadə oluna bilər.

### *Kartofu istehlak etməyin ən sağlam yolu*

Amma kartofun insan orqanizminə faydalı olması onun necə bişirilib istehlak edilməsindən birbaşa asılıdır. Çünki kartofun qida dəyəri və sağlamlıq faydaları bişirmə üsullarına görə dəyişir. Buxarda və ya qabığını soymadan sobada bişirmək kartofu istehlak etməyin ən sağlam yoludur.

Bu tərəvəz yağlı, duzlu, qızardılmış və ya çips kimi istehlak edildikdə orqanizm üçün olduqca zərərli olur. Kartof çipsləri, kartof qızartması və emal edilmiş kartof məhsullarında xərçəngin inkişafına kömək edən neyrotoksik maddə olan akrilamid var. Bundan əlavə, akrilamid genlərə və reproduktiv sağlamlığa mənfi təsir göstərir.

Tərkibində yüksək kalium olduğundan beta-bloker dərmanlardan istifadə edənlər və böyrəkləri zədələnənlər kartofu ehtiyatla istehlak etməlidirlər.

Bu tərəvəz həddindən artıq istehlak edildikdə, yaxud çips və ya qızartma şəklində bişirilib yeyildikdə çəki artımına da yol açır.

### *Yaşılı zəhərlidirmi?*

Kartof işığa məruz qaldıqda xlorofil istehsal edir ki, bu da onun rənginin yaşıllaşmasına səbəb olur. Xlorofil özü tamamilə zərərsizdir. Lakin bu, kartofda potensial zərərli bitki birləşməsi olan solaninin yüksək səviyyəsinə səbəb olur. Böyük miqdarda solanin zəhərli ola və həzm sisteminə mənfi təsir göstərə bilər.

Solanin zəhərlənməsi üçün tələb olunan solaninin miqdarı bədən ölçüsünə görə dəyişir. Məsələn, 100 qram kartofda 20 milliqram solanin olur ki, bu da 100 kiloqram çəkiyə malik insanı xəstələndirə bilər. Qeyd edək ki, solanin ən çox qabıqda cəmlənir. Bu cür kartofun toksik təsirini qabığını soymaqla və ya bıçaqla yaşıl hissələrini çıxarmaqla azalda və ya aradan qaldıra bilərsiniz.

Yaşıl kartofda solanin çox olduqda qan dövranı və tənəffüs problemləri, həmçinin baş ağrıları, əzələ krampları və ishala səbəb ola bilər.

**Şəfalı**

## Qabıqsız yemək olmaz

**Böyük Britaniyanın Kral Tibb Cəmiyyəti nəzdindəki sağlam qida forumunun sabiq prezidenti doktor Merilin Qlenvillin sözlərinə görə, kartofu qabıqsız yemək böyük səhv və sağlamlıq üçün əhəmiyyətsizdir.**



Kartofdan təmizlənmiş bir yumruq həcmində qabıq həkimlərin tövsiyə etdiyi həll olunan lif, kalsium, dəmir, fosfor, sink və C vitamininin gündəlik dozasının yarısı ilə orqanizmi təmin edə bilər: "Lakin kartofun qabığı bir qayda olaraq zibil yeşiyinə atılır".

Tədqiqatlar göstərib ki, kartof qabığı bədənin kalium ehtiyacını da ödəyir, maddələr mübadiləsini sürətləndirir, qəbul edilən qidanın enerjiyə çevrilməsini təmin edir. Kartof qabığı ən mühüm minerallardan sayılan dəmirlə də boldur. Dəmirin əsas funksiyası qırmızı qan hüceyrə istehsalını dəstəkləməkdir.

Linus Paulinq İnstitutunun apardığı araşdırma 4 ədəd kartofun qabığında 4,9 milliqram dəmir olduğunu təsdiqləyib. Bu, 51 yaşından yuxarı olan qadınların gündəlik dəmir ehtiyacının 61 faizini, 50 yaşından aşağı olan qadınların isə ehtiyaclarının 27 faizini təşkil edir.

Kartof qabığı sağlamlıq üçün olduqca əhəmiyyətli olan B3 vitamini ilə zəngindir. Kalium kimi, B3 də qidaların enerjiyə çevrilməsini təmin edir, eyni zamanda hüceyrələri fizioloji stresdən azad edir.

**Faydalı**

## Şirin dərman

**Şirin kartof son dərəcə qidalı, faydalı və dadlı kök tərəvəzidir. Narıncı, bənövşəyi və ya ağ rəngli müxtəlif şirin kartoflar bütün dünyada geniş şəkildə becərilir. Lif, C, A vitaminləri ilə zəngindir və beta-karotin, xlorogen turşu və antosiyaninlər də daxil olmaqla bir çox antioksidantların mənbəyidir. Bu tərəvəzlər qan şəkərini idarə edir, zəngin A vitamini tərkibi ilə göz sağlamlığını qoruyur və qəbizliyin qarşısını alır.**



Xüsusən narıncı və bənövşəyi şirin kartoflar orqanizmi sərbəst radikallardan qoruyan antioksidantlarla zəngindir.

Şirin kartof bişmiş, qaynadılmış, qovrulmuş və ya qarnir kimi istehlak edilə bilər.

Rəngli kartofların tərkibindəki həllolunan liflər bağırsağın selikli hüceyrələrini qidalandırır və onları sağlam saxlayaraq yoğun bağırsağın xərçəngindən qoruyur.

Araşdırmalar bənövşəyi şirin kartofun tərkibində olan antosiyaninin iltihabı azaldaraq və sərbəst radikalların yaratdığı zədələnmələrin qarşısını alaraq beyni qoruya bildiyini, yaddaşı yaxşılaşdırdığını ortaya çıxarıb.

Şirin kartof digər nişastalı qidalarla müqayisədə aşağı qlisemik indeksə malikdir. Yəni şəkəri yavaş-yavaş qana buraxır. Beləliklə, diabet xəstələrində qan şəkərini idarə etməyə və tənzimləməyə kömək edir. Tərkibindəki lifin diabetin müalicəsi üçün faydalı olduğu düşünülür. Bu lifin təxminən 77 faizi həll olunmur və bu təqdirdə lif insulinə həssaslığı artıraraq qanda şəkərin miqdarını tənzimləməyə kömək edir.

**Diqqət**

## Olar, olmaz



- Soyuducuya kartof qoymayın, bu, solanin səviyyəsinin artmasına səbəb ola bilər;
- Kartofu sərin və qaranlıq yerdə saxlayın, gün işığından qorumağa diqqət edin;
- Kartofla soğan bir yerdə saxlanılmamalıdır, çünki hər iki tərəvəz digərinin çürüməsinə səbəb olan təbii qazlar buraxır;
- Kartof adətən 2 aya qədər rəf ömrünə malikdir, lakin xarab olmuş kartof ətrafındakı digər kartoflara təsir edə bilər. Qalanlarının xarab olmaması üçün çürük kartofları çeşidləyin;
- Kartof alarkən zədələnmiş və ya yaşıl olanı seçməyin;
- Bakteriyaların yığılmaması üçün qablaşdırılmamış və yuyulmamış kartof almağa üstünlük verin. Kartofun əvvəlcədən yuyulması qabığın üzərindəki qoruyucu təbəqəni yox edir;
- Kartof 4 dərəcədən yuxarı temperaturda saxlanmalıdır. Əks halda içindəki nişasta şəkərə çevrilərək dadı dəyişir. İdeal istilik isə 7-10 dərəcə arasıdır.

**Xalq təbabəti**

## Möcüzəvi su



**Kartof şirəsi tərkibində mühüm vitaminlər və fitokimyəvi maddələr olan çox faydalı təbii məhsuldur. Bir çox sağlamlıq problemlərinin, xüsusən də mədə xəstəliklərinin təbii həllində əvəzolunmazdır.**

Kartof suyu Avropa təbabətində mədə və yoğun bağırsaq xərçənginin müalicəsində geniş istifadə olunur. Bir çox alimin fikrincə, kartofun tərkibində antioksidant və iltihab əleyhinə xüsusiyyətlərə malik çoxlu fenollar, zülallar və qlikoalkaloidlər var. Kartof suyundakı bəzi aktiv maddələr xərçəng hüceyrələrinin ölçüsünü azaltmağa kömək edir.

Gündə bir stəkan kartof suyu içməklə artrit ilə əlaqəli oynaq və bel ağrılarını yaxşılaşdıra bilərsiniz. Ənənəvi tibdə kartof suyuna batırılmış bezin birbaşa oynaqlara sürtülməsi və ya sarınmasının ağrının azaldılmasında faydalı olduğu təsdiqlənib. Probiotik içki sayılan kartof şirəsi mədə xoraları və reflünün qarşısını alır. Səhər yeməyindən 30 dəqiqə əvvəl bir stəkan kartof suyu qaraciyər və öd kisəsini təmizləməyin ən asan yollarından biridir.

Kartof suyu süzülmədən içildiyi zaman tərkibindəki liflər və əsas qida maddələri sayəsində xolesterin salıcı təsir göstərir.

Bu möcüzəvi su yüksək miqdarda kalium ehtiva etdiyi üçün qan təzyiqini aşağı salmağa kömək edir.

**Resept**

## Gözəlliyə xidmət

**Kartof dərinin dəstək sistemi olan kollageni gücləndirmək qabiliyyətinə malikdir. Xüsusilə çiy kartof və suyu ilə hazırlanmış sadə maskalar sızanaqların, qara nöqtələrin və ya dəri ləkələrinin müalicəsində son dərəcə təsirlidir. Daha parlaq və qırışsız bir dəriyə sahib olmaq istəyirsinizsə, aşağıdakı reseptlərdən istifadə edə bilərsiniz.**



**Gözaltı göyərmələr və şişkinlik üçün:** çiy kartofu soyun və böyük dilimlərə ayırın. Dilimləri nazik parça ilə sarıyıb gözlərinizin altına qoyun. 20 dəqiqədən sonra ilıq su ilə yuyun.

**Qırışlar üçün:** qırışmış nahiyəyə kartof suyu çəkin və ya incə doğranmış çiy kartof qoyun. 15-20 dəqiqə gözlədikdən sonra ilıq su ilə yuyun.

**Ölü dəri hüceyrələrini çıxarmaq üçün:** üzünüzü və boynunuzu kartof suyu ilə nəmləndirilmiş pambıq parça ilə silin.

**Quru dərilər üçün:** kartofu sürtgəcdən keçirin və içinə 1 çay qaşığı kəsmik əlavə edərək yaxşıca əzin. Bu maskanı üzünüzə çəkib 20-25 dəqiqə saxlayın. Soyuq su ilə yuyun.

**Günəş yanıqlarının müalicəsi üçün:** çiy kartof dilimlərini günəş yanığı nahiyəsinə qoyun. Rahatlıq hiss edənə qədər gözləyin.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Koronavirusa yoluxma halları artır

## Bu infeksiyaya qarşı müqaviməti gücləndirmək üçün buster doza vurdurmaq lazımdır



Əvvəli 1-ci səh.

Bu ehtiyaclar üçün ÜST-ə 23 milyard dollardan çox vəsait lazımdır. ÜST rəhbəri qlobal məqsədlərə nail olmaq və növbəti 12 ay ərzində ölkələrə zəruri vəsait təqdim edilməsi üçün 23,4 milyard ABŞ dollarının lazım olduğunu açıqlayıb. Deyib ki, bu təşəbbüsün tam maliyyələşdirilməsi ÜST-ün strategiyasının, pandemiyanı nəzarətə götürmək üçün geniş əhatəli planımızın ən mühüm komponentidir.

ACT-Accelerator (COVID-19-un diaqnostikası, müalicəsi və vaksinlərə bərabər şəkildə əlçatanlılıq, vaksinlərin hazırlanması və istehsalı üzrə əməkdaşlıq proqramı) təşəbbüsünün yeni strategiyasını və büdcə planını açıqlayan ÜST-ün Baş direktoru diqqətə çatdırıb ki, yüksək gəlirli ölkələrdə aşağı gəlirli dövlətlərlə müqayisədə əhali 80 dəfə çox testdən keçib və 30 dəfə çox peyvənd olunub. Əgər indiyədək tətbiq edilən 6,8 milyard doza peyvənd ədalətli şəkildə paylanılsa idi, dünyada hər ölkənin əhalisinin 40 faizi vaksinasiyadan keçərdi. Bu vaxtadək peyvəndlərə əlçatanlığı qeyri-kafi olduğu 144 ölkədə COVAX proqramı çərçivəsində 425 milyon doza vaksin paylanılıb. Tedros Adhanom Gebreyesus deyib: "ACT-A üçün yeni büdcə planının bir hissəsi olaraq, qarşıdakı bir ildə COVID-19 ilə mübarizədə məqsədimizə çatmaq üçün 23,4 milyard dollarlıq büdcə tələb edirik. Oktyabrın 30-31-də Romada keçiriləcək G20 Liderlərinin Sammitində üzv dövlətləri ACT-A-ya tam dəstək verməyə və qlobal təhlükəsizliyi təmin etmək üçün iş planını hazırlamağa çağırıram".

Vəziyyətin mürəkkəbləşdiyi bir vaxtda almaniyalı alimlər koronavirusun İsveçdə müəyyən olunan yeni A.30 ştamı ilə bağlı qorxulu məqamı açıqlayıblar. Elm adamları yeni ştamın mövcud peyvəndlərin təmin etdiyi anticisimlərə qarşı yüksək həddə müqavimətə sahib olduğunu bəyan ediblər. Mütəxəssislərin sözlərinə görə, həmin ştam xəstəliyin fəallığını artıraraq böyük təhlükəyə səbəb olacaq.

Belə bir vaxtda COVID-19 virusunun "Delta" ştamı ilə müqayisədə daha yoluxdurucu olan AY.4.2 növü bir sıra dünya ölkələrində, eləcə də qonşu Rusiyada geniş yayılıb. Mütəxəssislər COVID-19-un yoluxduruculuq və letallıq faizinin daha yüksək olduğu yeni mutasiyaların yaranma ehtimalını nəzərə alaraq vətəndaşların buster (qüvvətləndirici) doza ilə peyvəndlənməsini tövsiyə edir.

Azərbaycan dövləti postsovet ölkələri arasında vaksinasiyaya başlayan ilk ölkələrdən biri olub. Azərbaycanda COVID-19 əleyhinə bu günə qədər vurulan vaksinlərin ümumi sayı artıq 9 milyonu keçib.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Marketinq və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sağlamlıq vəziyyətindən asılı olaraq vətəndaşların yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə dördüncü doza vaksin vurdurması mümkündür. Bildirilib ki, Azərbaycanda vətəndaşların ilkin vaksinasiyadan (2 dozalıq) 6 ay sonra buster doza vurdurması və ya revaksinasiya mümkündür: "COVID-19 xəstəliyinə qarşı 2 doza vaksin vurdurduqdan 6 ay sonra orqanizmin virusa qarşı müqaviməti azalır. Orqanizmin koronavirus infeksiyasına qarşı müqavimətini yenidən artırmaq üçün buster dozanın vurulması tövsiyə olunur".

Təəssüf ki, son günlər bütün dünyada olduğu kimi, ölkəmizdə də yeni növ koronavirusa yoluxma hallarında artım müşahidə edilir. Ancaq bir çox ölkələrlə müqayisədə Azərbaycanda vəziyyət nəzarətdə saxlanılır. Düzgün karantin tədbirləri və vaksinasiya prosesi sayəsində hazırda Azərbaycan dünyada hər milyon nəfərə düşən yoluxma səviyyəsinə görə 99-cu yerdədir. Müqayisə üçün qeyd edək ki, Gürcüstan bu siyahıda 5-ci, Ermənistan isə 45-cidir.

Azərbaycanda koronavirusa yoluxanların sağalanları üstələdiyi, gündəlik ölüm sayının 20-30 arasında, aktiv xəstə sayı 26 mindən çox olduğu, üstəlik rəsmi qurumların növbəti aylarda, yəni noyabr və dekabrda epidemioloji durumun daha da kritikləşəcəyini, növbəti dalğanın tüğyan edəcəyini bəyan etdikləri bu günlərdə yenidən gərəkli qərar verilib. Belə ki, Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddətinin 2022-ci il yanvarın 1-dək uzadılması barədə Baş nazir Əli Əsədov qərar imzalayıb.

Koronavirusla bağlı vəziyyətin daha da gərginləşməməsi, karantin rejiminin sərtləşdirilməməsi üçün ən böyük məsuliyyət yenə də vətəndaşların üzərinə düşür. Sadə qaydalara əməl etmək, maskanı göstəriş üçün deyil, düzgün qaydada taxmaq, sosial məsafəni gözləmək, gigiyenik qaydalara əməl etmək vacibdir və vaksinasiya prosesindən kənarda qalmamalıyıq. Əks halda, pandemiyadan əvvəlki normal günlərə dönmək arzularımız xəyal olaraq qalacaq, hələ uzun müddət gözəgörünməz və arzuolunmaz virus həyatımızı alt-üst etməkdə davam edəcək.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*








# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


# Rəsmi İrəvan Zəngəzur dəhlizini özünə xilas yolu görür

## Ermənistanda parlament debatları sərhədlə bağlı maraqlı məqamları üzə çıxarır

Əvvəli 1-ci səh.

Müdafiə naziri Arşak Karapetyan parlamentdə çıxışı zamanı qoşunların geri çəkilməsinə şifahi və ya yazılı əmrin olub-olmamasından danışmayıb. Nazir deputatlara müraciət edib: "Sizin çoxsaylı komissiyalar təşkil etmək imkanınız var və bunu edirsiniz də. Xahiş edirəm bu sualı özünüzə verin. Müdafiə Nazirliyi elə bir qurum deyil ki, ağlınıza gələn sualı verəsiniz, biz də istədiyimiz cavabları verək".

Bundan sonra müxalifətçi deputat Anna Qriqoryan 18 dekabr 2020-ci ildə verilən geriçəkilmə əmrindən sonra Azərbaycan Ordusunun əraziyə girdiyini bildirib. O, geriçəkilmə əmrinin şifahi, yoxsa yazılı olduğunu da soruşub. Paşinyan cavabında qeyd edib: "Bu qərar ona görə qəbul olunub ki, müharibə olmasın. Çünki mən əminəm ki, belə bir qərar qəbul olunmasaydı, orada hərbi əməliyyatlar başlanardı və bizim Zəngəzurda doğrudan da problemlərimiz olardı. Zəngəzurdan hərbi birliklərin geri çəkilməsi əmrini şəxsən mən vermişəm".

Paşinyanın sözlərinə görə, bu qərar hərbi əməliyyatların yenilənməsinə imkan verməmək üçün atılıb: "Biz istəyirdik ki, heç olmasa, müvəqqəti də olsa, strateji mahiyyət daşıyan yolu itirməyək. Zəngəzurla bağlı məsələdə mən haçansa öz məsuliyyətimdən imtina etmişəm? Yazılı və şifahiyə qalanda, əmr mövcud prosedurla verilir. Müzakirə etmişik və qərar verilib. Təhlükəsizlik Şurasının toplantısı olmayıb, ancaq onun bütün üzvləri, Zəngəzurun qubernatoru, "heç nədən xəbərim yoxdur" deyən xarici işlər naziri, o cümlədən nazir müavini o müzakirədə iştirak edirdilər. Və qərar qəbul edildi. Biz yeni müharibədən qaçmaq istəyirdik. Əgər bu qərar verilməsəydi, hərbi əməliyyatlar yeni güclə başlayacaqdı".

Göründüyü kimi, Nikol Paşinyan Ermənistanın 44 günlük müharibədə aldığı məğlubiyyətdən sonra ölkəsinin daha böyük böhrana düçar olmaması üçün bu qərarı alıb. Zəngəzur dəhlizinin açılmasının sülh prosesində mühüm və mümkün irəliləyiş olduğunu anlamağa başlayıb. Kommunikasiyaların bərpası Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşmasına xidmət etməklə yanaşı, iki ölkə üzərindən ticarət və nəqliyyat daşımalarını əhəmiyyətli dərəcədə artıracaq. Proseslərin bu səpkidə inkişafı Azərbaycan və Ermənistana mühüm dividendlər qazandıracaq, eyni zamanda tərəfdaş dövlətlərə böyük fayda verəcək.

Bütün bunlar nəticə etibarı ilə regionda davamlı sülhün və sabitliyin təmin edilməsində önəmli rol oynayacaq. Sülh müqaviləsinin imzalanması ilə əməkdaşlıq üçün yaranacaq yeni zəmin fonunda Ermənistan çoxdan arzusunda olduğu bir sıra vacib layihələri reallaşdıra bilər. Nikol Paşinyan da bildirib ki, Ermənistan 7 rayonun qaytarılması barədə saziş imzalamışdı, yəni Şərqi Zəngəzurdan geri çəkilməli idi və bu, artıq yeni xəbər deyil: "Mən şəxsən bu qərardan və Zəngəzurdakı situasiyadan məsuliyyət daşıyıram".

Ermənistan rəsmiləri kommunikasiyanın açılmasına razı olduqlarını bildirdikləri vaxtda ölkədəki revanşist qüvvələr prosesin baş tutmaması üçün məkrli niyyətlərini gizlətmədən aşkarda nümayiş etdirirlər. Buna əngəl olmaq üçün nə daxili, nə də xarici dəstəyə malik olduqlarını da çox yaxşı başa düşürlər. Parlament brifinqi zamanı müxalif "Hayastan" fraksiyası bəyan edib ki, Ermənistan baş prokurorluğu ötən ilin dekabrında qoşunların Zəngəzur sahəsində geri çəkilməsinə şifahi əmr vermiş baş nazir Nikol Paşinyan barəsində sənədlərin hazırlanmasına başlamalıdır.

Bu arada "Azatutyun" radiosu bildirir ki, son vaxtlar 44 günlük müharibədən sonra Ermənistan qoşunlarına Sünik sahəsində geri çəkilmək əmrinin kimin verməsi barədə mübahisələr kəsilmək bilmir. Bu məsələ artıq bir neçə həftədir ki, müxalifətin gündəliyində qalır. Sözü gedən suala nə müdafiə nazirliyi, nə də milli təhlükəsizlik Xidməti cavab verir.

Belə mübahisələrin erməni parlamentində hələ müəyyən müddət davam etməsi gözlənilir. Lakin reallıq birdir. Ermənistanın xarici asılılıqdan qurtulmasının və beynəlxalq münasibətlərin müstəqil iştirakçısına çevrilməsinin yeganə yolu rəsmi Bakının sülh müqaviləsi təklifini qəbul etməsindən, Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmasından keçir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*



# Sudanda nə baş verir?

## Hakimiyyəti ələ keçirən hərbçilər ölkədə "məsuliyyətli hökumət" yaratmaq istəyir

1956-cı il yanvarın 1-də müstəqilliyini elan edən Sudan Respublikası Şimali Afrikada yerləşir. Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik federativ respublikadır.

1983-cü ildə ölkədə baş verən vətəndaş müharibəsi Sudanı iki hissəyə - müsəlmanlardan ibarət şimal və xristianlardan ibarət cənub hissəsinə bölüb. 22 ilə qədər, yəni 2005-ci ilədək davam edən müharibə "İkinci vətəndaş müharibəsi" adını alıb. Bu illər ərzində aclıqdan, xəstəlikdən, işgəncələrdən və döyüş əməliyyatlarında 2 milyondan çox insan həlak olub, 4 milyondan artıq insan isə qaçqın düşüb.

Yalnız 2005-ci ildə Cənubla Şimal silahlı qarşıdurmaya son qoymaq haqqında razılığa gəlib. Keçid dövrü haqqında razılıq əldə edilib. Sülh prosesi kifayət qədər uzun çəkib. 2011-ci ildə keçirilmiş referendumdan sonra Cənubi Sudan müstəqillik əldə edib. ABŞ isə hər iki tərəfə dəstək, o cümlədən hərbi dəstəyini davam etdirir. Çünki neft cənubi Sudanda hasil olunur, lakin neft kəmərləri və terminalları şimali Sudanın ərazisində yerləşir ki, bu da hər iki ölkənin hökumətlərini ABŞ-ın iqtisadi və hərbi yardımından asılı vəziyyətə salmışdır.

2019-cu il aprelin 11-də Sudanda keçirilən aksiyalar 1989-cu ildən ölkəni idarə edən Ömər əl-Bəşirin devrilməsi ilə nəticələndi. Silahlı qüvvələr onun 30 illik hakimiyyətinə son qoydular. Ömər əl-Bəşir hazırda ev dustaqlığında saxlanılır. Onun Haaqa Beynəlxalq Tribunalına təhvil verilməsi ilə bağlı razılıq əldə olunub. Sudanın müdafiə naziri və vitse-prezident Avad ibn Auf ölkənin idarə edilməsinə nəzarət edəcək müvəqqəti hərbi şuranın başçısı kimi and içib.

### Hərbçilərin dövlət çevrilişi

Son vaxtlar Sudanda baş verən hadisələr dünyanın maraq dairəsindədir. Bir neçə həftə davam edən etiraz nümayişlərindən sonra hərbçilər Baş nazir Abdulla Hamdoku, habelə bir neçə naziri və yüksək vəzifəli məmuru həbs etmişlər.

Ölkənin yeni lideri general Əbdülfəttah Burhan "gənclər inqilabına ordunun cavabı" kimi ölkənin ali orqanlarını buraxmış və fövqəladə vəziyyət elan etmişdir. O, həmçinin Prezident Ömər əl-Bəşir devrildikdən sonra keçid dövrünün çərçivələrini, habelə hərbçilərlə vətəndaş hakimiyyəti arasında münasibətləri müəyyənləşdirən konstitusiya bəyannaməsinin bir neçə maddəsinin qüvvəsini dayandırmışdır. Paytaxt Xartuma zirehli texnika yeridilmiş, şəhərə giriş və çıxış bağlanmış, beynəlxalq hava limanı mühasirəyə alınaraq qapadılmış, dövlət teleradiosu binasına nəzarət ələ keçirilmişdir. Oktyabrın 25-də Sudan prezidenti səlahiyyətlərini icra edən general Əbdülfəttah Burhan televiziyası ilə xalqa müraciət etmişdir. O bildirmişdir ki, Nazirlər Kabineti və Suveren Şura əvəzində "məsuliyyətli hökumət" yaradılacaq. General həmçinin təsdiqləmişdir ki, əvvəlcədən planlaşdırıldığı kimi, seçkilər 2023-cü ilin iyulunda keçiriləcək.

BMT-nin Baş katibi Antoniu Quterreş və dünya liderlərinin tələbindən sonra Abdulla Hamdok dustaqlıqdan buraxılmışdır.

Ölkədə baş vermiş hərbi çevrilişdən sonra Ümumdünya Bankı Sudana maliyyə yardımını dayandırmışdır. Bu barədə bankın başçısı Devid Melpass "Frans Press" agentliyinə məlumat verib.

Son məlumata görə, Sudanın azı 6 səfiri vəzifəsindən azad edilib. Bunların arasında ABŞ, Avropa İttifaqı və Fransadakı diplomatlar var. Onlar ölkənin hərbçilər tərəfindən ələ keçirilməsini pisləmişlər.

General Əbdülfəttah Burhanın vəzifəsindən azad etdiyi diplomatlar arasında Sudanın Qətərdəki, Çindəki və BMT-nin Cenevrədəki missiyasının səfirləri var. Bu barədə dövlət televiziyası xəbər verib.

### Sudan beynəlxalq birlikdən kömək istəyir

Sudanın BMT-dəki daimi nümayəndəsi Məhəmməd İbrahim Elbahi bildirmişdir ki, onun ölkəsi beynəlxalq birliyin köməyinə ümid edir. O deyib ki, Sudan gəncləri arasında qurbanlar mənasız olmasın deyə, həm hərbçilər, həm də vətəndaşlar tərəfindən yaxınlaşma yolları axtarmaq lazımdır. "Bir neçə ölkə Sudanda baş vermiş hadisələrdən narahatlığını bildirmişdir. Bu narahatlığı anlayaraq biz bir daha vurğulamağı lazım bilirik ki, beynəlxalq birlik, xüsusilə BMT-nin Təhlükəsizlik Şurası Sudan xalqına köməyi davam etdirsin. Ölkənin yolayrıcında olduğu bu vacib məqamda həm hərbçilər, həm də vətəndaşlar tərəfindən müxtəlif fikirlərin yaxınlaşma yollarını axtarmalıyıq ki, son iki il ərzində Sudan gəncliyi arasında olan qurbanlar boşa getməsin".

### Vaşinqton və Moskva Xartuma kömək etməyə hazırdır

Rusiyanın xarici işlər nazirinin müavini Mixail Boqdanov ABŞ-ın Afrika Buynuzu üzrə xüsusi təmsilçisi Ceffri Feltmanla telefon söhbətində Sudanın işlərinə xaricdən qarışmağın qəbuledilməzliyini vurğulamışdır.

Amerika tərəfinin təşəbbüsü ilə baş tutmuş danışıq zamanı tərəflər gələcəkdə də Sudan xalqına hərtərəfli kömək etməyə hazır olduqlarını təsdiqləmişlər.

Əbdülfəttah Burhanın televiziya ilə çıxışından sonra devrilmiş baş nazir Abdulla Hamdokun çağırışı ilə başlamış etiraz aksiyaları hələ də davam edir. Narazı əhali yolları bağlayır, yanğınlar törədirlər. Hərbçilər onlara qarşı gözyaşardıcı qazdan və odlu silahdan istifadə edirlər.

Son məlumata görə, Xartumda qarşıdurma zamanı 11 nəfər həlak olub, 100-dən çox etirazçı xəsarət alıb.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi "Aqrarkredit" QSC-nin İdarə Heyətinin üzvü, Biznesin İnkişafı departamentinin direktoru Süleyman Kələşova əzizi

**HƏQİQƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5609
Sifariş 2086
Qiyməti 40 qəpik